Elxan Süleymanov




# AZƏRBAYCAN 10 il AVROPA ŞURASINDA

2011

Elxan Süleymanov

# Azərbaycan
# 10 il
# Avropa Şurasında

Bakı – 2011

**Elmi redaktor:**
Eduard Lintner,
Almaniya-Azərbaycan Əlaqələrinin İnkişafına Yardım
Cəmiyyətinin sədri, Almaniya millət vəkili (1976-2009),
Parlamentdə Dövlət Katibi (1991-1998),
AFR-in Daxili İşlər Nazirinin müavini (1992-1998)

**Elxan Süleymanov. Azərbaycan 10 il Avropa Şurasında.**
Bakı: "Xəzər" nəşriyyatı, 2011. ____ 46 səh.

Kitab Azərbaycan Respublikasının Avropa Şurasına tam və bərabərhüquqlu üzv qəbul edilməsinin 10 illiyinə həsr edilmişdir. Kitabda Azərbaycanın bu nüfuzlu beynəlxalq təşkilatla əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi, Avropa Şurasında üzvlüyü dövründə ölkədə sivil, demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin bərqərar olması və inkişafı istiqamətində əldə etdiyi nailiyyətlər, o cümlədən Avropa Şurası strukturlarında qarşılaşdığı problemlər və onların həlli yolları qısa formada təhlil edilmişdir.

Kitab ingilis dilində Brüsseldə işıq üzü görmüşdür.

ISBN
9 789952 801736

© *Elxan Süleymanov, 2011*

# AZƏRBAYCAN 10 İL AVROPA ŞURASINDA

## MÜNDƏRİCAT

**Ön söz.** *Cənab Jan Pol Anri* ---------------------------------------- 4

**Giriş** ---------------------------------------------------------------- 6

**I. Avropa Şurasına üzvlüyə aparan yol** ------------------------ 8
*1.1. Əməkdaşlıq labüddür*
*1.2. "Xüsusi qonaq" statusu*
*1.3. Əməkdaşlıq proqramları dəqiqləşir*
*1.4. Qanunvericilik sisteminin yenilənməsi*
*1.5. Başlıca narahatlıq: Dağlıq Qarabağ münaqişəsi*
*1.6. Qəbul edilməli olan beş yekun öhdəlik*
*1.7. Tam üzvlüyə dəvət*

**II. Azərbaycan Respublikasının Avropa Şurasında bərabərhüquqlu üzv kimi fəaliyyətinin ilk 10 ili** ----------- 22
*2.1. İlk tam tərkibli sessiya*
*2.2. Milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması*
*2.3. "Siyasi məhbus" anlayışında ikili standartlara qarşı mübarizə*
*2.4. Dağlıq Qarabağ münaqişəsi Avropa Şurasının gündəliyində*

**Nəticə** ------------------------------------------------------------ 44

# Ön söz

Düz on il əvvəl 25 yanvar 2001-ci il tarixində Azərbaycan Avropa Şurasına tam üzv qəbul edilmişdir. O vaxt Avropa Şurası Parlament Assambleyasının Belçika üzrə nümayəndə heyətinin prezidenti kimi, mən həmin tarixi anın şahidi oldum. O zaman orada iştirak edən bütün parlamentarilər üçün bu, həyəcanlı bir an idi, çünki hər kəs bunun hər iki tərəfdaş – bu Avro-Xəzər ölkəsi və eləcə də böyük Avropa ailəsi üçün böyük, həlledici bir addım olduğunu hiss edə bilirdi.

Bu həm Avropa Şurası, həm də o zaman, yəni 2001-ci ildə gənc parlament üzvü, hazırda isə Azərbaycan Respublikasının prezidenti olan İlham Əliyev tərəfindən rəhbərlik edilən Azərbaycanın parlament heyəti üçün unudulmaz hadisə idi.

Hətta bizim Belçika nümayəndə heyəti üçün bu, böyük an idi, çünki Azərbaycanın tam üzvlüyü Belçikalı həmkarın mühüm əhəmiyyət kəsb edən məruzəsi əsasında qəbul edilmişdi. Bu məruzə Parlament Assambleyası tərəfindən böyük dəstək almışdır.

Bir çox digər beynəlxalq assambleyalarda Belçika nümayəndə heyəti hər zaman Azərbaycanın nümayəndə heyətinə yaxın əyləşir. Həqiqətən, əlifbada da Belçika düz Azərbaycanın adından sonra gəlir və hətta Strasburqda Avropa Sarayının qarşısında bayraqlarımız da yanaşı dalğalanır. Beləliklə, təəccüblü deyil ki, bütün bu illlər ərzində biz ölkələrimiz arasında çox güclü dostluq əlaqələri qurmuşuq.

Məsafə etibarilə bizdən çox uzaqda yerləşən, lakin eyni zamanda, öz coğrafi və strateji mövqeyi ilə bütün Avropa sakinləri üçün aparıcı rola malik Azərbaycan kimi ölkənin Avropa ailəsinə qoşulması Avropa üçün əhəmiyyətli hadisə idi.

Bu on il müddətində biz bir-birimizi tanımağı və qiymətləndirməyi öyrəndik. On illər boyu davam edən kommunizmdən çıxmaq və

dərhal əsrlər boyu qədim Avropada yaratdığımız bütün tarixi Avropa demokratik standartlarına uyğunlaşmalı olmaq heç də həmişə, xüsusilə bu cür qısa müddət üçün asan bir tapşırıq deyil. Lakin biz bu ilk on il ərzində Azərbaycanın bütün səylərini və onun nəticəsi olan inkişafı yüksək qiymətləndiririk.

2010-cu ilin noyabrında keçirilən parlament seçkilərindən sonra parlamentə yeni bir üzv seçilmiş və AŞ PA-nın Azərbaycan üzrə nümayəndə heyətinin üzvü təyin edilmişdir: cənab Elxan Süleymanov.

Mən onu Azərbaycanda vətəndaş cəmiyyətinin bütün aspektləri ilə məşğul olan mühüm QHT-nin fəal sədri və bizə, Avropalılara, öz ölkəsi və xalqının səmimiliyi, obyektivliyi və bilmədiyimiz gözəlliklərini göstərmək üçün bütün mümkün səyləri göstərmiş bir insan kimi tanıyıram.

İndi o, siyasi həyat yolunda addımlayır və Avropa Şurası Parlament Assambleyasının üzvünə çevrilir.

Bu əhəmiyyətli təşkilatın fəxri üzvü kimi, mən ona ən xoş arzularımı çatdırır və uğurlar arzu edirəm.

Əminəm ki, o, bundan sonra da Avropa Şurası ilə doğma ölkəsi arasındakı əlaqələri gücləndirmək üçün öz vəzifəsinin icrasını davam etdirəcək.

Buna ilk sübut Sizin əlinizdədir: AŞ PA yarımdairəsinə doğru addımlamazdan əvvəl yazdığı bu kitab, bu dəlil. Bu ön sözü yazmaq dəvətini almaq mənim üçün həqiqi bir şərəf idi.

**Jan-Pol Anri,**
**Avropa Şurası Parlament Assambleyasının fəxri üzvü,**
**Avropa Şurasının Belçika üzrə nümayəndə heyətinin keçmiş prezidenti**

# Giriş

Azərbaycan Respublikası müstəqilliyk əldə etdikdən sonra bazar iqtisadiyyatına əsaslanan sivil, demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu, dünya dövlətləri ilə qarşılıqlı hörmət və fayda əsasında əməkdaşlığı, sivil dünyaya, inkişaf etmiş beynəlxalq birliklərə inteqrasiyanı özünün daxili və xarici siyasətinin prioritet istiqamətləri elan etmişdir. Azərbaycan qeyd edilən dövlət siyasətini həyata keçirmək, həmçinin müstəqillik əldə etdiyi andan qarşılaşdışı problemlərin — dövlət müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirmək, Ermənistanın əsassız ərazi iddiaları və silahlı təcavüzü nəticəsində baş vermiş Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun olaraq həllinə, Azərbaycanın beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə nail olmaq məqsədilə qısa bir müddət ərzində əksər nüfuzlu universal və regional təşkilatlara üzv qəbul edilərək müstəqil dövlət kimi dünyanın müasir beynəlxalq münasibətlər sisteminə daxil olmuş, bir sıra qlobal layihələrin reallaşdırılmasına, o cümlədən Xəzər dənizinin Azərbaycan sektoruna aid olan hissəsindən təbii enerji ehtiyatlarının dünya bazarına çıxarılması üzrə silsilə tədbirlər həyata keçirərək "Əsrin müqaviləsi"nin imzalanmasına və XXI əsrin ilk onilliyində reallığa çevrilməsinə nail olmuşdur.

İnsan hüquqlarının və əsas azadlıqların təmin edilməsi, Avropanın demokratik və hüquqi əraziyə çevrilməsi sahəsində müstəsna rol oynamış Avropa Şurası ilə sıx əməkdaşlıq əlaqələrinin formalaşması və perspektivdə bu nüfuzlu beynəlxalq təşkilata üzv olmaq Azərbaycan dövlətinin siyasətində xüsusi önəm kəsb etmişdir. Ölkədə siyasi, hüquqi, iqtisadi və digər sferalarda həyata keçirilən çoxşaxəli və ardıcıl islahatların nəticəsi kimi Azərbaycan Respublikası 25 yanvar 2001-ci ildə Avropa Şurasının tam və bərabərhüquqlu üzvü qəbul edilmiş

və bununla da inkişafının növbəti mərhələsinə qədəm qoymuşdur.

Azərbaycan Avropa Şursının bərabərhüquqlu üzvü kimi keçmiş 10 il ərzində dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi, demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyətinin qurulması və inkişaf etdirilməsi, o cümlədən insan hüquqlarına və əsas azadlıqlara dair beynəlxalq standartların milli qanunvericilikdə təsbiti və təmin edilməsi, bazar iqtisadiyyatının bərqərar olması, ölkənin sosial-iqtisadi inkişafı və Avropa hüquq məkanına inteqrasiyası sahələrində ciddi irəliləyişlərə nail olmuşdur. 2001-ci ildən indiyə qədər AŞ PA-da qazanılan uğurlarda Azərbaycan nümayəndə heyətinin üzvü olmuş millət vəkillərinin rolunu xüsusi vurğulamaq istərdim.

Odur ki, Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi, Azərbaycanın 10 il əvvəl Avropa Şurasına üzv qəbul edilməsindən ötən dövr ərzində ölkədə demokratik proseslərin genişlənməsi və insan hüquqlarının təmin edilməsi sahəsində əldə olunmuş nailiyyətlər, Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın tərəflər üçün qarşılıqlı əhəmiyyəti və ölkənin Avropaya inteqrasiyası istiqamətində qarşıya çıxan problemlər və onların həlli yollarının araşdırılması aktuallıq kəsb edir. Qeyd edilən proseslərin qısa icmalı təqdim edilən materialda öz əksini tapmışdır.

# I. Avropa Şurasına üzvlüyə aparan yol

## 1.1. Əməkdaşlıq labüddür

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra öz inkişafının prioritet istiqamətlərinin qanuni normalara əsaslanan dünyəvi, demokratik, dövlət və güclü vətəndaş cəmiyyəti qurmaqdan ibarət olmasını elan etmişdir. Azərbaycan bu istiqamətdə qarşıya çıxan mühüm problemlərin, ilk növbədə dövlət müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunması və ərazi bütövlüyünün bərpa edilməsi, beynəlxalq azad bazar iqtisadiyyatına keçidin təmin olunması üçün islahatların həyata keçirilməsi və dünya inteqrasiya proseslərinə sıx cəlb olunması məqsədilə qısa bir müddət ərzində bütün aparıcı dünya dövlətləri ilə, qlobal və regional beynəlxalq təşkilatlarla əlaqələr quraraq sıx əməkdaşlıq etməyə başlamışdır. Azərbaycan tezliklə BMT və ATƏT-ə üzv olmaqla müstəqil dövlət kimi beynəlxalq aləmdə ilk addımlarını atmış oldu. Hazırda Azərbaycan, demək olar ki, bütün əksər nüfuzlu beynəlxalq təşkilatların üzvüdür.

Avropa Şurasının insan hüquqları və əsas azadlıqların müdafiəsi və təminatı, dövlət müstəqilliyini yenidən bərpa etmiş ölkələrdə demokratik proseslərin inkişafı və hüququn aliliyi prinsipinin təmin edilməsi istiqamətində, o cümlədən Avropa məkanında iqtisadi, sosial, mədəni, elm, hüquqi və digər sahələrdə ümumi maraq kəsb edən məsələlərin həllində müstəsna rolunu nəzərə alaraq Azərbaycan bu quruma üzv olmaq təklifi ilə çıxış etmişdir.

Lakin ölkə uzun müddət totalitar rejim vasitəsilə idarə olunduğundan, Azərbaycan cəmiyyətinin Avropa Şurasına inteqrasiyası heç də rahat olmamış, ciddi hüquqi və siyasi islahatların həyata keçirilməsi nəticəsində reallaşmışdır. Digər tərəfdən isə qısa bir müddət ərzində ölkədə yaradılmış siyasi sabitlik, dünyəvi, demokratik və hüquqi

dövlət quruculuğu, eləcə də azad bazar iqtisadiyyatının bərqərar olmasına yönəlmiş islahatlar və nəhayət, insan hüquqlarının qorunması sahəsində həyata keçirilmiş tədbirlər Azərbaycanın Avropaya inteqrasiya proseslərinə qoşulması üçün əlverişli zəmin yaradırdı. Üçüncü bir tərəfdən, Azərbaycanın əlverişli geosiyasi mövqeyi və zəngin təbii ehtiyatları Avropa ölkələri ilə Azərbaycanın əməkdalıq etməsini labüd edirdi və odur ki, bütün maraqlı tərəflər Azərbaycanın Avropaya inteqrasiyasını təbii qəbul edirdi.

Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi istiqamətində səyləri bərpa edilmiş dövlət müstəqilliyin möhkəmləndirilməsi və qorunub saxlanılması, insan və vətəndaş hüquqlarının müdafiəsi və təmin edilməsi mexanizmlərinin gücləndirilməsi, Avropa dövlətləri ilə diplomatik münasibətlərin beynəlxalq təşkilat çərçivəsində çoxtərəfli əsaslarda dərinləşdirilməsi, Azərbaycan Respublikasının xarici siyasətinin dövlətlərin və xalqların dinc yanaşı yaşaması, sülh və təhlükəsizliyin qorunması və digər beynəlxalq hüquq prinsiplərinə, o cümlədən Avropa Şurasının prinsiplərinə əsaslandığını beynəlxalq aləmdə nümayiş etdirmək, Avropa Şurasında Azərbaycanın obyektiv imicini formalaşdırmaq, insan hüquqlarının və demokratik standartların müdafiəsi yolu ilə inkişaf etdiyini bəyan etmək, beynəlxalq ictimaiyyət tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı obyektiv qiymətləndirməyə nail olmaq, öz məqsədlərini və mövqeyini dünya ictimaiyyətinə çatdırmaq üçün Avropa Şurasının ali tribunasından istifadə etmək kimi siyasi məqsədləri güdürdü.

### 1.2. “Xüsusi qonaq” statusu

Azərbaycan Respublikası rəsmi şəkildə ilk dəfə 1992-ci ilin yanvarında Avropa Şurasına müraciət edərək “Xüsusi qonaq” statusla təşkilatın fəaliyyətində təmsil olunmaq istədiyini bildirsə də, bu mötəbər Avropa təşkilatı ilə Azərbaycan arasında işgüzar əlaqələrin qurulması 1993-cü ilin ikinci yarısından başlayaraq formalaşmağa

başlamışdır. Belə ki, məhz bu dövrdən etibarən Azərbaycanın xarici siyasətində Avropa Şurasına daxil olmaq istiqamətində həyata keçirilən bir sıra kompleks tədbirlər, müstəqil Azərbaycanın qanuni normalara əsaslanan dünyəvi dövlət quruculuğu sahəsində bu quruma üzv olmaq meyllərini daha bariz şəkildə büruzə vermişdir.

Bu dövrdə Prezident Heydər Əliyevin Azərbaycanda demokratik dəyərlərin bərqərar və inkişaf etdirilməsi, insan hüquqlarının və əsas azadlıqlarının təmin olunması, Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılması, digər dövlətlərlə formalaşmış bərabərhüquqlu və faydalı münasibətlərin sərhədlərinin genişlənməsi və balanslaşdırılmış xarici siyasətin həyata keçirilməsi sayəsində və Avropaya inteqrasiya istiqamətində apardığı məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində ölkənin Avropa Şurasına tamhüquqlu üzv olması üçün zəmin yaradılmış oldu. Belə ki, 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə müstəqil Azərbaycan dövlətinin qəbul edilmiş Konstitusiyası insan hüquq və azadlıqlarının müdafiəsi və təminatı sahəsində beynəlxalq norma və standartları özündə əks etdirmişdir. Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi göstərilmişdir. Bununla yanaşı, Konstitusiyada təsbit edilmiş demokratik prinsipləri və dəyərləri həyata keçirmək məqsədilə ölkədə genişmiqyaslı islahatlara başlanılmış və qanunvericilik, məhkəmə-hüquq, təhsil və mədəniyyət sahələrini əhatə edən hökumətlərarası əməkdaşlıq proqramının hazırlanması Avropa Şurası ilə əməkdaşlığın daha da genişlənməsinə səbəb olmuş və Avropa Şurası Parlament Assambleyasının 1996-cı il iyunun 24-28-də keçirilmiş Sessiyası Azərbaycanın demokratik dövlət quruculuğu istiqamətində səylərini nəzərə alaraq ona "xüsusi dəvət olunmuş" statusunun verilməsi haqqında qərar qəbul etmişdir. Azərbaycanın nümayəndə heyəti "xüsusi qonaq" statusunda Avropa Şurasının Parlament Assambleyasının fəaliyyətinin müxtəlif sahələrində və hökumətlərarası əməkdaşlıq və kömək proqramı

çərçivəsində ayrı-ayrı komitələrin işində iştirak etməyə başlamışdır.

Bununla Azərbaycan Avropa Şurası Parlament Assambleyasında ümumavropa problemlərinin müzakirəsində birbaşa iştirak etmək imkanı qazanmışdır. AŞ PA-nın işində iştirak, bir tərəfdən, Azərbaycan üçün parlament demokratiyası məktəbinə çevrilmiş, digər tərəfdən, Avropada Azərbaycanın mövqeyinin möhkəmlənməsinə xidmət etmiş oldu. Digər tərəfdən, Avropa Şurasında mövcud qaydalara görə, "xüsusi qonaq" statusu almış ölkədə vəziyyət, demokratik dəyişikliklərin gedişi, əməkdaşlıq yollarına dair fikir mübadiləsinin aparılması, əlaqələrə konkret məzmun verilməsi üçün həmin ölkəyə yüksək səviyyəli səfərlər təşkil edilir. Odur ki, "xüsusi dəvət olunmuş" statusunu əldə etdikdən sonra Avropa Şurasının yüksək vəzifəli şəxslərindən ibarət nümayəndə heyətlərinin, təyin edilmiş məruzəçilərinin Azərbaycana səfərləri daha da intensivləşmiş və Azərbaycanda həyata keçirilən demokratik islahatların dönməzliyini müşahidə etdiklərini bildirmişlər. Bu səfərlər zamanı Azərbaycanın Avropa Şurası üzvlüyünə qəbulu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, Azərbaycanda demokratik təsisatların inkişafı, insan hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi məsələləri müzakirə olunmuş, Azərbaycan tərəfinin insan hüquqları, qanuni normalara əsaslanan hüquqi dövlətin infrastrukturlarının qurulması, Azərbaycan Respublikası qanunlarının hazırlanmasında Avropa Şurası tərəfindən ekspert köməyi göstərilməsi və əməkdaşlığın inkişafında maraqlı olduqları qeyd edilmişdir.

Bu isə öz növbəsində Avropa Şurası ilə Azərbaycan arasındakı əlaqələrin gələcək inkişafına müsbət təsir göstərmiş və Azərbaycanla Avropa Şurası arasında əməkdaşlıq əlaqələrini yeni səviyyəyə qaldıraraq, onun bu təşkilata tam və bərabərhüquqlu üzv olması üçün perspektivlərini genişləndirmişdir.

## 1.3. Əməkdaşlıq proqramları dəqiqləşir

Eyni zamanda, Avropa Şurası ilə Azərbaycan arasında praktiki olaraq təşkilatın bütün fəaliyyət sahələrini əhatə edən Fərdi əməkdaşlıq proqramı tərtib olunmuş və bu proqramın əsas məqsəd və vəzifələri, həmçinin onun həyata keçirilməsinin forma və metodları Azərbaycan Respublikasının Prezidentinin 8 iyul 1996-cı tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında" sərəncamında müəyyən edilmişdir. Fərdi proqram çərçivəsində Avropa Şurası ilə bu əməkdaşlıq Azərbaycanda demokratik institutların təkmilləşdirilməsi, mövcud inzibati strukturların və məhkəmə sisteminin yenidən qurulması, milli qanunvericiliyin Avropa standartlarına yaxınlaşdırılması, təhsil, elm, mədəniyyət və başqa sahələrin inkişafına kömək etmək istiqamətində mühüm addım olmuşdur. Fərdi tərəfdaşlıq proqramı çərçivəsində həyata keçirilən hüquqi islahatlar əsasən məhkəmə sisteminin fəaliyyəti, qanunun aliliyinin inkişafı ilə bağlı olmuş, məhkəmə, vəkillik, ədliyyə orqanları və hüquq-mühafizə orqanlarının səlahiyyət və vəzifələrini müəyyən etmiş çoxsaylı yeni qanunlar hazırlanaraq qəbul edilmişdir.

Nəhayət, Azərbaycan Respublikası Prezidentinin 13 iyul 1996-cı ildə Avropa Şurasının Baş katibinə ünvanladığı məktubda Azərbaycanın Avropa Şurasının tamhüquqlu üzvü olmaq və başqa üzv dövlətlər kimi "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına" qoşulmaq arzusunda olduğu bildirilirmişdir.

Avropa Şurası Nazirlər Komitəsi Azərbaycanın bu arzusu ilə bağlı onun üzvlük məsələsini Avropa Şurasının gündəliyinə daxil etmiş və, bununla da, Azərbaycanın Avropa Şurasına üzvlük məsələsi gündəmə gəlmişdir.

Avropa Şurasına üzv olmaq barədə müraciət etmiş Azərbaycan Respublikasının fəaliyyətinin bu təşkilatın standartlarına uyğunluğunu araşdırmaq məqsədilə AŞ Parlament Assambleyasının üç

Komitəsi — Siyasi Məsələlər Komitəsi, Hüquqi Məsələlər və İnsan Hüquqları Komitəsi və Üzv olmayan Avropa ölkələrilə Əlaqələr Komitəsi 1996-cı ilin payızında Azərbaycan üzrə məruzəçilər təyin etmişlər. Bundan başqa, Avropa Şurasının Parlament Assambleyasının Bürosu məsələ ilə əlaqədar hüquqşünaslardan ibarət İnsan Hüquqları Komissiyasının nümayəndə qrupu təşkil etmişdir.

Bu dövrdə Azərbaycan Respublikası Prezidentinin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində" 22 fevral 1998-ci il tarixli fərmanı və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 18 iyun 1998-ci il tarixli sərəncamı ilə insan hüquqlarının qorunmasının təmin edilməsi sahəsində tədbirlər proqramı qəbul edilmişdir. Bununla bərabər, Azərbaycan Respublikası Prezidentinin 20 yanvar 1998-ci il tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında" və 14 may 1999-cu il tarixli "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında" sərəncamlarında Avropa ölkələrində hamılıqla qəbul edilmiş standartlara və normalara uyğunluq baxımından Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Mülki və Mülki-Prosessual məcəllələrinin hazırlanmasının sürətləndirilməsi, Azərbaycan Respublikasının Avropa Şurasının bir sıra konvensiya və sazişlərinə qoşulması məsələsinin araşdırılması tövsiyə edilmişdir.

Azərbaycan Avropa Şurasının bir sıra konvensiyalarına, o cümlədən, Avropa Mədəniyyət Konvensiyasına, Arxeoloji İrsin Mühafizəsi Haqqında Avropa Konvensiyasına, Birgə Kino İstehsalı Haqqında Avropa Konvensiyasına, Avropanın Canlı Təbiətin və Təbii sərvətlərin Mühafizəsi haqqında Konvensiyasına və s. qoşulmuşdur.

### 1.4. Qanunvericilik sisteminin yenilənməsi

Bu dövrdə Azərbaycan parlamenti tərəfindən insan hüquqlarına və əhalinin geniş kütlələrinin mənafelərinə mühüm təsir göstərə biləcək bütün qanunvericilik aktlarının layihələri Avropa Şurasının hüquqi ekspertizasından keçirilmək üçün göndərimış və oradan alınan səmərəli təkliflər qanunların qəbulu zamanı istifadə edilməyə başlanmışdır. Qısa müddət ərzində Azərbaycan Respublikasının qanunvericilik sistemi tam yeniləşmiş, ölkədə məhkəmə islahatları həyata keçirilmiş, bu məqsədlə müvafiq qanunvericilik aktları qəbul edilmiş, təşkilati və digər tədbirlər görülmüşdür. Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, Cəzaların İcrası məcəllələri, "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Polis haqqında", "Prokurorluq haqqında", "Notariat haqqında" və digər qanunlar qəbul edilmişdir. Konstitusiya Məhkəməsi yaradılması Azərbaycanda demokratiyanın inkişafı, dövlətçiliyin möhkəmləndirilməsi və dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi istiqamətində əhəmiyyətli hadisə olmuşdur. Mövcud məhkəmə təsisatı tamamilə yenidən qurularaq üçpilləli məhkəmə sistemi formalaşdırılmışdır. Test imtahanları və güclü rəqabət yolu ilə yeni hakimlər seçilmiş, Azərbaycanın penitensiar sistemi beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Bu formada həyata keçirilən əməkdaşlıq Azərbaycan Respublikası qanunvericik aktlarının Avropa standartlarına uyğunlaşdırılması prosesini ciddi şəkildə sürətləndirmişdir.

Azərbaycan Respublikasının insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində atdığı ən mühüm addımlardan biri kimi 1993-cü ildən etibarən ölüm cəzasının tətbiqi üzərinə moratorium qoyulması, 1998-ci ildən isə Şərqdə ilk dəfə olaraq bu cəzanın tamamilə ləğv edilməsi olmuşdur. Ölüm cəzasının ləğv edilməsi və cəza siyasətinin humanistləşməsi şübhəsiz Azərbaycanın Avropa sisteminə inteqrasiyası üçün zəmin yaradan əsas amillərdən

biri olmuşdur. Azərbaycanda cəza siyasətinin humanistləşməsi istiqamətində atılmış ən mühüm addımlardan biri də əfv institutunun bərpası olmuşdur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 4 may 1995-ci il tarixli fərmanı ilə Əfv məsələləri komissiyası yaradılmışdır. Həmin dövrdən indiyədək komissiya tərəfindən minlərlə məhkumun sənədləri araşdırılmış, Azərbaycan Prezidenti tərəfindən 45 əfv fərmanı imzalanmış və 4869 məhbus əfv edilmişdir. Bu dövr ərzində humanizm siyasətinin davamı olaraq məhkum olunmuş şəxslərə münasibətdə yuxarıda qeyd edilən əfv siyasəti ilə yanası, amnistiya aktlarının tətbiqi də həyata keçirilmiş, 1995-ci ildən indiyədək 10-a qədər amnistiya aktı 96 mindən çox şəxsə tətbiq edilmiş, o cümlədən təxminən 25 min məhkum cəzaçəkmə müəssisələrindən azad olunmuşdur.

Azərbaycan Respublikası Prezidentiinin 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı ölkədə demokratiyanın inkişafını sürətləndirən mühüm tədbirlərdən biri olmuşdur. Belə ki, həmin fərmanla söz azadlığının təmin edilməsi və geniş şəkildə təsbit edilməsi üçün Azərbaycanda mətbuat üzərindən senzura ləğv edilmişdir. Bununla yanaşı, 7 dekabrın 1999-cu ildə ölkədə fikir və söz azadlığını, mətbuatın müstəqilliyini təmin edən, mətbuat azadlığını məhdudlaşdıran inzibati tədbirlərdən istifadəni qadağan edən "Kütləvi informasiya vasitələri haqqında" qanun qəbul edilmişdir. Qanuna əsasən kütləvi informasiya vasitələri üzərində dövlət senzurasına yol verilmir, vəzifəli şəxslər tərəfindən hər hansı müdaxilə, o cümlədən senzura tətbiq etmə, peşə müstəqilliyini pozma və digər hüquqların pozulması Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq mülki, inzibati, cinayət və digər məsuliyyətə səbəb olur.

Öz növbəsində Avropa Şurası Parlament Assambleyasının nümayəndə heyəti Azərbaycan Respublikasında 1995-ci ilin noyabrın 12-də keçirilmiş parlament seçkilərini, 1998-ci ilin oktyabrında

keçirilmiş prezident seçkilərini, 2000-ci ilin noyabrında keçirilmiş parlament seçkilərini, Avropanın Yerli və Regional Hakimiyyətləri Konqresinin nümayəndə heyəti isə 1999-cu ilin dekabrında keçirilmiş ilk bələdiyyə seçkilərini müşahidə etmişlər. Beynəlxalq müşahidəçilər həmin seçkilər zamanı müəyyən pozuntuların olmasını qeyd edərək, onları ölkənin demokratikləşdirilməsi istiqamətində irəliyə atılmış uğurlu addım kimi qiymətləndirmişlər.

Beləliklə, Azərbaycan Respublikasının inkişafında həyata keçirilən bu demokratik ictimai, siyasi, sosial, iqtisadi, hüquqi dəyişikliklər, yeni qəbul edilmiş Konstitusiyada və qanunlarda insan hüquqları və əsas azadlıqların təsbit olunması Azərbaycanın İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulmağa hazır olmasını bəyan etməyə, Avropa siyasi məkanına tamamilə daxil olmağa cəhd etməklə yanaşı, Azərbaycana sosial, elmi-texniki, mədəni və humanitar sahələrdə də mühüm əhəmiyyət daşıyan Avropa normativ sənədlərinə qoşulmağa imkan yaratmış oldu.

### 1.5. Başlıca narahatlıq: Dağlıq Qarabağ münaqişəsi

Avropa Şurası ilə əməkdaşlığın genişlənməsi prosesində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəblərinin, Ermənistan tərəfindən Azərbaycanın 20% ərazisinin işğalı, işğalçı dövlətin həmin ərazilərdə etnik təmizləmə siyasətinin həyata keçirməsi, 1 miyondan artıq Azərbaycanlının münaqişə nəticəsində qaçqın və məcburi köçkünə çevrilməsi faktlarının Avropa ictimaiyyətinə çatdırılması, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla beynəlxalq hüquq prinsiplərinə müvafiq olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə nail olmaq şübhəsiz Azərbaycan Respublikasının xarici siyasət diplomatiyasının prioritet istiqaməti olmaraq qalmışdır.

Qeyd edilməlidir ki, 1988-ci ildən başlayaraq bölgədə genişlənən döyüş əməliyyatlarından narahatlığını bildirən Avropa Şura-

sı öz qərarlarında Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına münasibət bildirmədən, münaqişənin mahiyyətinə aydınlıq gətirmədən mücərrəd sülhə çağırırdı. Hətta AŞ PA-nın 1994-cü il 10 noyabr tarixli 1047 saylı Qətnaməsində Avropa Şurası Ermənistanı müdafiə etdiyini dolayısı ilə bildirərək Türkiyəni və Azərbaycanı Ermənistanın blokadasını ləğv etməyə çağırırdı.

Lakin Azərbaycanın bu sahədə həyata keçirdiyi ardıcıl siyasət nəticəsində Cənubi Qafqazda baş vermiş münaqişələrə, o cümlədən Dağlıq Qarabağ münaqişəsinə dair müzakirələr keçirilmiş, Cənubi Qafqaz respublikalarına nümayəndələr göndərilmiş və, nəhayət, Avropa Şurasının nümayəndəsi J.Setlenjin hazırladığı hesabat əsasında Avropa Şurasının Parlament Assambleyası 1997-ci ilin yanvar ayında “Zaqafqaziya münaqişələrinə dair” 1119 saylı qətnamə qəbul etmişdir. Qətnamədə regionun inkişafı üçün əsas təhlükə olan Dağlıq Qarabağ və Abxaziya münaqişələrinin nizamlanması üçün 1975-ci il Helsinki Yekun Aktının və 1990-cı il Paris Xartiyasının prinsiplərindən irəli gələn aşağıdakı müddəaların əsas götürülməsi vacib hesab edilmişdir: sərhədlərin toxunulmazlığı; regionun bütün xalqları üçün, əsasən, çoxmillətli sülhyaratma qüvvələri tərəfindən dəstəklənən təminatlı təhlükəsizlik; cəlb olunmuş bütün tərəflərin Abxaziyaya və Dağlıq Qarabağa geniş muxtariyyət statusu verilməsi barədə razılaşması; qaçqınların və köçkünlərin geri qayıtmaq hüququ və insan hüquqlarına hörmət əsasında onların yenidən inteqrasiyası. Qətnamənin X bəndində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin siyasi yollarla nizamlanmasının vacibliyi əks olunmuş və işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi, qaçqın və məcburi köçkünlərin geri qaytarılması, Dağlıq Qarabağın Azərbaycanın ərazi bütövlüyü çərçivəsində hüquqi statusunun müəyyənləşdirilməsi kimi məsələlərin dinc vasitələrlə həlli öz əksini tapmışdı. Beləliklə, AŞ PA tərəfindən qəbul edilmiş qətnamə Dağlıq Qarabağ münaqişənin həllində dünya ictimaiyyəti tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normaları əsasında sülhə nail olmaq

üçün zəmin yaratmış oldu. Lakin Avropa Şurası digər beynəlxalq təşkilatlar kimi, münaqişəyə yanaşmasında təcavüzkarla təcavüzün qurbanlarını bir-birindən ayırmır, sülh danışıqlarına dair aparıcı dünya dövlətlərinin və beynəlxalq təşkilatların çağırışlarına qoşulmaqla öz fəaliyyətini bitmiş hesab edirdi.

### 1.6. Qəbul edilməli olan beş yekun öhdəlik

Azərbaycan Respublikasının Avropa Şurasına üzv olma prosesində daha çox 2000-ci il öz dinamikası ilə seçilir. Azərbaycanın Avropa Şurasına üzv olması üçün Avropa Şurası Parlament Assambleyasının Siyasi Komitəsi tərəfindən hazırlanmış Tovsiyələr Paketi 2000-ci ilin əvvəllərində ölkə içtimaiyyətinə təqdim edilmişdir. Dövlət başçısı, Baş Nazir, Milli Məclisin sədri, aparıcı müxalifət partiyalarının liderləri tərəfindən imzalanmış və ilkin variantda on yeddi bənddən ibarət olan Tövsiyələr Paketində Azərbaycan Respublikasının yaxın gələcəkdə Avropa standartlarına uyğunlaşdırılması məqsədilə yerinə yetirilməsi nəzərdə tutulan tədbirlər, o cümlədən, Dağlıq Qarabağ problemi ilə bağlı AŞ-ın mövqeyi açıqlanmışdır. Sənəddə AŞ PA Azərbaycan Respublikasından xarakter etibarı ilə beş qrupa bölmüş müəyyən öhdəliklərin qəbul olunmasını xahiş emişdir.

Öhdəliklərin birinci qrupunda yaxın vaxt ərzində Azərbaycanın qoşulmalı olduğu Avropa Konvensiyaları sadalanmış və qoşulma müddətləri göstərilmişdir.

Öhdəliklərin ikinci bölümündə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün səyləri davam etdirmək, beynəlxalq və daxili mübahisələri beynəlxalq hüququn prinsiplərinə, o cümlədən, Avropa Şurasına üzv dövlətlərin üzərinə qoyulan öhdəliklərə uyğun olaraq aradan qaldırmaq, qonşuları hər hansı formada zor tətbiq etmək yolu ilə hədələməkdən birdəfəlik imtina etmək tövsiyə edilmişdir.

Milli qanunvericiliyin təkmilləşdirilməsilə bağlı olan məsələləri əhatə edən üçüncü qrup öhdəliklərdə göstərilirdi ki, seçkilər haqqında qanunvericilik, o cümlədən, "Mərkəzi Seçki Komissiyası haqqında"

və “Milli Məclisə Seçkilər haqqında” qanunlar, əvvəlki seçkilərdə iştirak edən beynəlxalq müşahidəçilərin tövsiyələri nəzərə alınmaqla, yenidən işlənilsin, növbəti bələdiyyə seçkilərinə qədər Avropanın Yerli və Regional Hakimiyyətləri Konqresinin tövsiyələrinə əsasən yerli özünüidarə orqanları haqqında qanunvericiliyə dəyişikliklər edilsin, qanunvericilik hakimiyyətinin icra hakimiyyətinə münasibətdə müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində islahatlar davam etdirilsin, parlamentə, hökumət üzvlərinə sorğu ilə müraciət etmək hüququndan istifadəyə şərait yaradılsın, təşkilata üzv qəbul edildikdən sonra altı ay ərzində Avropa Şurası ekspertlərinin rəyinə uyğun Cinayət Prosessual Məcəlləsi, bir il ərzində ombudsman haqqında, korrupsiya ilə mübarizə haqqında qanunlar, iki il ərzində isə korrupsiya ilə mübarizə üzrə dövlət proqramı qəbul edilsin.

İnsan hüquqları və əsas azadlıqların təmin edilməsi ilə bağlı olan dördüncü bölümdə Azərbaycan qarşısında aşağıdakı öhdəliklər irəli sürülürdü: hər hansı bir məhdudiyyət və şərt qoyulmadan Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Komitəsilə məhkumların görüşməsinə təminat verən müqavilə imzalamaq; hüquq müdafiə təşkilatları tərəfindən siyasi məhbus kimi tanınan məhkumların işinə baxılması və onların azad edilməsi məsələsinə baxmaq; vəzifə borcunu yerinə yetirərkən insan hüquqlarını, o cümlədən, işgəncənin qadağan edilməsi ilə əlaqədar normaları pozan hüquq-mühafizə orqanlarının nümayəndələrini məhkəmə məsuliyyətinə cəlb etmək; söz azadlığına, kütləvi informasiya vasitələrinin və jurnalistlərin müstəqilliyinə təminat vermək, mətbuatın azadlığını məhdudlaşdıran inzibati tədbirlərdən istifadəni aradan qaldırmaq; milli televiziya kanalını müstəqil İcraçı Şura tərəfindən idarə olunan ictimai kanala çevirmək; 3 il müddətində milli azlıqlar haqqında qanun qəbul etmək.

Öhdəliklərin beşinci bölümündə isə Azərbaycan Respublikasına üzv dövlət kimi öz üzərinə götürdüyü öhdəlik və vəzifələri yerinə yetirməsi vəziyyətinin monitorinqini həyata keçirilməsi məqsədilə

Avropa Şurası–Parlament Assambleyasının Monitorinq Komitəsilə geniş əməkdaşlıq etməsi tövsiyyə edilmişdir.

**1.7. Tam üzvlüyə dəvət**

2000-ci ilin iyulundan noyabrınadək davam edən müzakirələrdən sonra noyabrın 9-da AŞ PA-nın 1998-ci ildən Azərbaycan Respublikasında ölüm cəzasının ləğvi yüksək qiymətləndirilmiş, "Kütləvi informasiya vasitələri haqqında", "Konstitusiya Məhkəməsi haqqında", habelə bir sıra digər qanunlara əlavələr edilməsi, hakimlərin təyini proseduru, onların vəzifələrində qalma müddətləri məsələsinə yenidən baxılması və s. məsələlər tövsiyə olunmuş 222 saylı rəyi əsasında Avropa Şurası Nazirlər Komitəsinin 107-ci sessiyasında qəbul etdiyi 14 saylı xüsusi Qətnamədə Azərbaycan Avropa Şurasına üzv olmağa və nizamnaməyə qoşulmağa dəvət edilmiş, AŞ PA-da onun nümayəndələrinin sayı 6 nəfər həddində müəyyənləşdirilmişdir.

Nazirlər Komitəsi də öz növbəsində Azərbaycan Respublikasına beş bənddən ibarət Tövsiyələr Paketi təqdim etmişdir. Həmin sənəddə bölgənin demokratik inkişafı ilə bağlı mütəmadi olaraq monitorinqlərin keçirilməsi; Parlament seçkiləri zamanı beynəlxalq müşahidəçilərin müəyyən etdikləri pozuntularla bağlı, onların tənqidinə cavab verən hesabatın respublika hökuməti tərəfindən hazırlanması; bu məqsədlə monitorinq qrupunun yaradılması; AŞ-ın standartlarına müvafiq olaraq ölkə Konstitusiyasına bir sıra əlavə və dəyişikliklər edilməsi, "Seçkilər haqqında" və "Kütləvi informasiya vasitələri haqqında" qanunların Avropa standartlarına uyğunlaşdırılması məqsədilə Venetsiya Komissiyasının kömək etməyə dəvət edilməsi, Ermənistanla birgə Azərbaycan dövlətinin Qarabağ probleminin dinc yolla nizamlanmasının intensivləşdirilməsi nəzərdə tutulmuşdur.

Nəhayət, Azərbaycan Respublikasının Avropa Şurasına qəbulunu hazırlamaq məqsədilə yaradılmış Monitorinq qrupu lazımi sənədləri təqdim etdikdən sonra 2001-ci il yanvarın 17-də Azərbaycan Avropa

Şurasına tamhüquqlu üzv qəbul edilmiş və rəsmi mərasim yanvarın 25-nə təyin olunmuşdur. Bununla da Azərbaycan Respublikası Avropa inteqrasiya proseslərinə qoşulmaq uğrunda mübarizədə böyük qələbə əldə emiş və Avropa dövlətlərinin bu siyasi birliyinin üzvi hissəsinə çevrildiyini işdə sübut etmiş oldu. Azərbaycan Respublikasının Avropa Şurasına qəbul edilməsi Azərbaycan cəmiyyətində demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu, Azərbaycan dövlət müstəqilliyinin möhkəmləndirilməsi, onun Avropaya inteqrasiyası və beynəlxalq çoxtərəfli və ikitərəfli münasibətlər sistemində ölkəmizin mövqelərini əhəmiyyətli dərəcədə gücləndirilməsi istiqamətində mühüm mərhələ olmuşdur.

# II. Azərbaycan Respublikasının Avropa Şurasında bərabərhüquqlu üzv kimi fəaliyyətinin ilk 10 ili

## 2.1. İlk tam tərkibli sessiya

Strasburqda, Avropa Şurasının binası önündə 25 yanvar 2001-ci il də müstəqil Azərbaycan Respublikasının dövlət bayrağının ucaldılması Azərbaycanın Avropa Şurasına bərabərhüquqlu üzv qəbul edilməsini dünya ictimaiyyətinə nümayiş etdirmiş oldu. Tarixi əhəmiyyət kəsb edən bu hadisəni Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev belə qiymətləndirmişdir: "Azərbaycanın Avropa Şurasına qəbul edilməsi onun nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır".

Azərbaycan Respublikası üçün Avropa Şurasının üzvü olmaq müasir dövrdə beynəlxalq aləmdə, xüsusən Avropa məkanında baş verən proseslərə qoşulmaq, digər Avropa ölkələri ilə münasibətləri gücləndirmək və bu münasibətləri müsbət istiqamətdə inkişaf etdirmək, beynəlxalq əməkdaşlıqdan və qlobal problemlərin həllindən kənarda qalmamaq üçün əsas amillərdən biri olmuşdur. Digər tərəfdən, Avropa Şurasının bərabərhüquqlu üzvü kimi insan hüquqlarının qorunması sahəsində konvensiyalara qoşulmaq, onlardan irəli gələn öhdəliklərə əməl etmək dünya birliyi tərəfindən Azərbaycanın demokratik dövlət kimi tanınmasında əhəmiyyətli rol oynamaqla yanaşı, Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsinin təmin olunması üçün hüquqi baza yaradılmasına, əhalinin sosial təminatının Avropa standartlarına uyğunlaşmasına, Avropa ölkələri ilə siyasi, iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlığın yeni, daha yüksək mərhələyə keçməsinə təminat vermişdir.

Azərbaycan nümayəndə heyəti 2001-ci il aprelin 23-27-də ilk dəfə

olaraq tamhüquqlu üzv kimi Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasında iştirak etmişdir. Azərbaycan Avropa Şurasındakı fəaliyyətinin əsas vəzifələrini müəyyənləşdirərkən ilk növbədə ölkə həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaqla Ermənistanın işğalçı siyasətini ifşa etmək, azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi terrorçuluq və dəhşətli soyqırımı cinayətləri, Azərbaycan ərazilərinin 20 faizini işğal etməsi faktlarını tanıtdırmağı qarşısına məqsəd qoymuş, respublikada demokratik, qanuni normalara əsaslanan dövlət quruculuğu işini davam etdirmək, müstəqilliyi möhkəmləndirmək məqsədilə Avropa dəyərlərini mənimsəyərək bu birliyə inteqrasiya etmək istiqamətində fəaliyyətini genişləndirməyə xüsusi önəm vermişdir. Əsas vəzifələrdən biri də ölkədə demokratik dövlət quruculuğu işində islahatları davam etdirmək üçün Avropa Şurasının Azərbaycan qarşısında qoyduğu konkret öhdəliklərin yerinə yetirilməsi və vətəndaş cəmiyyətinin inkişafının təmin edilməsi olmusdur.

## 2.2. Milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması

Azərbaycanın Avropa Şurasına bərabərhüquqlu üzv qəbul olunması onun Avropaya inteqrasiyasını sürətləndirməklə yanaşı, ölkədə hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu proseslərinin sürətləndirilməsi, milli qanunvericiliyin Avropa Şurası tələblərinə və vahid Avropa standartlarına uyğunlaşdırılması, demokratik təsisatların, institusional mexanizmlərin formalaşdırılması, insan hüquqları və əsas azadlıqların təmin edilməsi üçün real imkanlar yaratmışdır.

Azərbaycan AŞ-na üzv olarkən öz üzərinə götürdüyü öhdəliklərdən biri Avropa Şurasının əsas sənədi sayılan İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası (Avropa İnsan Hüquqları Konvensiyası) və onun 1, 4, 6 və 7 saylı Protokollarının bir il ərzində ratifikasiya edilməsi olmuşdur. Azərbaycanın

öz üzərinə götürdüyü bu öhdəlik vaxtında yerinə yetirilmişdir. Belə ki, həmin Konvensiya və Protokolları 25 yanvar 2001-ci il tarixdə Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi ilə bağlı təşkil edilmiş təntənəli mərasimdə ölkə Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış və 25 dekabr 2001-ci il tarixdə Milli Məclis tərəfindən müvafiq bəyanat və qeyd şərtlərlə ratifikasiya edilmişdir. Konvensiya və onun 1, 4, 6 və 7 saylı Protokollarının ratifikasiyası zamanı qəbul edilmiş bəyanatın mühüm müddəalarından birində deyilir: "Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Konvensiyanın müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad edilənə qədər təminat vermək iqtidarında deyildir".

Azərbaycan Respublikası 15 aprel 2002-ci il tarixdə Konvensiya və onun Protokollarının ratifikasiya edilməsi haqqında sənədi depozitariyə təqdim etmiş və həmin gündən Konvensiya və onun Protokolları Azərbaycana münasibətdə qüvvəyə minmişdir. Məhz bu tarixdən Azərbaycanın yurisdiksiyası altında olan şəxslərin (vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin və digərlərinin) İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə (Avropa Məhkəməsi) müraciət etmək hüququ yaranmışdır. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Avropa İnsan Hüquqları Konvensiyası və ona əlavə Protokollarda təsbit olunmuş insan hüquqları və əsas azadlıqların pozulması ilə bağlı fərdi və dövlətlərarası şikayətlərə baxan və fərdin bilavasitə beynəlxalq məhkəməyə müraciətini təmin edən ixtisaslaşdırılmış məhkəmə orqanıdır. Avropa Məhkəməsinin qərarları presedent xarakter daşıyır və üzv dövlətlər qərarın icrası ilə bağlı konkret tədbirlərlə yanaşı gələcəkdə analoji pozuntuların qarşısını almaq üçün ümumi xarakterli tədbirlər də həyata keçirməlidirlər.

Beləliklə, Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması, Avropa İnsan Hüquqları Konvensiyası və ona əlavə Protokolları ratifikasiya etməsi Konvensiyada və ya ona əlavə Protokollarda təsbit olunmuş hüquqların pozulduğu halda və dövlətdaxili

səviyyədə pozulmuş hüquqların bərpasına nail oluna bilinmədiyi hallarda vətəndaşların və dövlətin yurisdiksiyası altında olan digər şəxslərin Avropa Məhkəməsinə müraciət etməsinə imkan yaratmışdır. Həmçinin Ermənistan tərəfindən deportasiya edilmiş və Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı nəticəsində bir çox hüquqlardan məhrum edilmiş yüz minlərlə soydaşlarımız bu işğalçı dövlətə qarşı onun da Avropa İnsan Hüquqları Konvensiyasına qoşulmasını nəzərə alaraq Avropa Məhkəməsinə müraciət etmək hüququ qazanmışlar.

Avropa Şurasına bərabərhüquqlu üzv qəbul edildiyi vaxtdan ötən 10 il ərzində Azərbaycan demokratik və hüquqi dövlət quruculuğunda, insan hüquq və azadlıqlarının müdafiəsi və təminatı istiqamətində xeyli iş görmüşdür. Ölkədə çoxpartiyalı cəmiyyət formalaşmış, azad söz və mətbuat azadlığı Azərbaycan cəmiyyətin həyatının ayrılmaz hissəsinə çevrilmişdir.

Azərbaycan Avropa Şurasının üzvü kimi İşgəncə və qeyri-insani və ya alçaldıcı rəftar və cəzalandırmanın qarşısının alınması haqqında Avropa Konvensiyası və onun protokollarını, Yerli özünüidarə haqqında Avropa Xartiyasını, Ərazi birlikləri və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyası və onun əlavə protokollarını, Ekstradisiya haqqında Avropa Konvensiyasını, Cinayət məsələlərində qarşılıqlı yardım haqqında Avropa Konvensiyasını, Cinayətkar yollarla əldə olunmuş gəlirlərin leqallaşdırılması, axtarışı, həbsi və müsadirəsi haqqında Avropa Konvensiyasını, Avropa Sosial Xartiyasını, Korrupsiya haqqında cinayət hüququ Konvensiyasını, Korrupsiya haqqında mülki hüquq Konvensiyasını və s. vacib beynəlxalq konvensiya və sazişləri ratifikasiya edərək, öz milli qanunvericiliyində təsbit etmişdir.

Qeyd edilməlidir ki, insan hüquqları sahəsində Avropa standartları müasir beynəlxalq hüququn tərkib hissəsidir. Azərbaycan qanunvericiliyində beynəlxalq hüquq normalarının yeri ilə bağlı məsələ Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən

edilmişdir. Konstitusiyaya əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir və Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlarla (Konstitusiya və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir. Göstərilən norma ilə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin respublikanın hüquq sisteminə daxil olan normativ aktların ierarxiyasında yeri müəyyən edilmişdir. Bu sistemdə beynəlxalq müqavilə hüquqi qüvvəsinə görə Konstitusiyadan və referendum yolu ilə qəbul edilmiş aktlardan sonra üçüncü yerdə durur.

Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklərlə əlaqədar Avropa İnsan Hüquqları Konvensiyası standartlarını Əsas Qanunda təsbit etmək üçün 2002-ci ildə keçirilmiş referendum nəticəsində ölkə Konstitusiyasına əlavə və dəyişikliklər edilmişdir. Əlavə və dəyişikliyə görə insanın yaşamaq hüququ daha təminatlı edilmiş, ölkə parlamentin səlahiyyətləri genişləndirilmiş, vətəndaşlara Konstitusiya Məhkəməsinə müraciət etmək və digər hüquqlar verilmişdir. Bu prosesin davamı olaraq Konstitusiyaya növbəti əlavə və dəyişikliklər 2009-cu il martın 18-də keçirilmiş referendum nəticəsində edilmişdir ki, bu əlavə və dəyişikliklər əsasən Azərbaycan Respublikasının iqtisadi və sosial sahələrdə inkişafı nəticəsində əhalinin sosial hüquqlarının Konstitusiya təminatının gücləndirilməsi və regionda son dövrlər ərzində baş verən dəyişikliklərlə baglı olmuşdur.

Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə uyğun olaraq 28 dekabr 2001-ci ildə Azərbaycan Respublikasının "İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul olunmuş və ona 2009-cu ildə dəyişikliklər edilmişdir. Qanuna uyğun olaraq İnsan hüquqları üzrə müvəkkil (ombudsman) təsisatı yaradılmış, 2002-ci il iyulun 2-də isə Azərbaycan

Respublikasının ilk ombudsmanı seçilmişdir. Müvəkkil (ombudsman) təsisatının yaradılmasının konstitusiya xarakterli bir məsələ olduğunu və insan hüquqları üzrə müvəkkilin özünün dövlətin siyasi-hüquqi sisteminin vacib bir komponenti olduğunu nəzərə alaraq, bu qanunvericilik aktı məhz Konstitusiya qanunu kimi qəbul olunmuşdur. Bu təsisatının yaradılması hüquq-müdafiə və məhkəmə-hüquq sistemində mövcud olan boşluqları doldurur, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi mexanizmində qüsurları aradan qaldırır. Müvəkkil (ombudsman) praktiki olaraq hüquq müdafiə fəaliyyəti göstərməklə vətəndaşların real problemləri ilə yaxından tanış olur, bu fəaliyyətin nəticələrini sistemləşdirib təhlil etməklə qanunvericiliyin yeniləşməsinə də yardım edir, hakimiyyətdən sui-istifadə və qeyri-professional idarəetmə məsələlərini qaldırmaqla dövlət orqanları və onların vəzifəli şəxslərinə verilmiş hakimiyyət hüduduna riayət edilməsinin təminatçısı xidmətini göstərir.

Konstitusiya Məhkəməsi haqqında yeni qanun 23 dekabr 2003-cü ildə qəbul olunmuş və bu qanun vətəndaşlara, bütün instansiya məhkəmələrinə, o cümlədən İnsan hüquqları üzrə müvəkkilə (ombudsmana) Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququ vermişdir. Ölkə Konstitusiyasına (m.130, IX bənd) 18 mart 2009-cu il tarixli referendumu nəticəsində Konstitusiya Məhkəməsinin qərarlarının dərc edilməsi barədə müddəa əlavə edilmişdir.

2002-ci ildə keçirilmiş referendum nəticəsində Konstitusiyaya edilmiş əlavələr və dəyişikliklərə əsasən hakimlərin təyin edilməsi proseduru və onların fəaliyyət müddətinə dair Konstitusiyanın müvafiq müddəalarına düzəlişlər edilmişdir. Hal-hazırda apellyasiya məhkəmələrinin hakimləri parlament tərəfindən təyin olunur və onların fəaliyyət müddəti 10 il təyin edilmiş, Konstitusiya Məhkəməsi hakimlərinin fəaliyyət müddəti isə 15 il müəyyənləşdirilmişdir. Hakimlərin təyinatı qaydasının təkmilləşdirilməsi üzrə Fəaliyyət Planı tərtib edilmiş və bu Plana uyğun olaraq “Məhkəmələr və hakimlər haqqında” qanuna əlavə və dəyişikliklər edilmiş, “Məhkəmə-Hüquq

Şurası haqqında" qanun qəbul edilmiş və müvafiq olaraq 2005-ci ildən Məhkəmə Hüquq Şurası fəaliyyətə başlamışdır. Ədliyyə naziri Şuranın sədri seçilmiş, beynəlxalq mütəxəssislərin tövsiyələrinə uyğun hazırlanaraq Avropa Şurasında ekspertizadan keçirilmiş "Hakimlərin Seçki Komitəsi haqqında Əsasnamə" və "Vakant olan hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsi Qaydaları" təsdiq olunmuşdur. Eyni zamanda, yeni qanunvericiliyin tələblərinə əsasən hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, intizam icraatının aparılması qaydaları haqqında təlimatların və s. sənədlərin hazırlanması üzrə tədbirlər görülmüş, bəzi sənədlər qəbul olunmuşdur.

Məhkəmə sisteminin strukturunun təkmilləşdirilməsi və hakimlərin iş yükünün azaldılması məqsədilə müvafiq təhlillər aparılmış, bütün hakimlər arasında anket sorğusu keçirilmiş və bu sahədə beynəlxalq təcrübə əsasında hakimlər üçün məqbul hesab edilən iş yükü və hər məhkəmə üçün nəzərdə tutulan hakimlərin sayı müəyyənləşdirilmişdir. Məhkəmə sisteminin müasirləşdirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 19 yanvar 2006-cı il tarixdə Fərman imzalanmışdır. Bu Fərmana əsasən Azərbaycanda yeni məhkəmələr yaradılmış, ədalət mühakiməsinin səmərəliliyinin, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq edilməsi, məhkəmə aparatlarının strukturunun və işinin daha optimal şəkildə qurulması, habelə digər mühüm məsələlərin həll edilməsi üçün tədbirlər həyata keçirilmişdir. Məhkəmə-Hüquq Şurasının 22 iyun 2007-ci il tarixli qərarı ilə "Hakimlərin Etik Davranış Kodeksi" qəbul edilmişdir. Hakimlərin təyinatı qaydalarının təkmilləşdirilməsi üzrə tədbirlər həyata keçirilmişdir. Məhkəmə-Hüquq Şurasında mütəmadi olaraq hakimlərin fəaliyyəti haqqında müzakirələr aparılır və Şuranın tövsiyyələri əsasında indiyədək 100-dən çox hakimlər barədə müxtəlif sanksiyalar tətbiq edilmiş, 30-dan çox hakimin fəaliyyətini davam etdirməsi tövsiyyə edilməmiş, 10-

dan artıq hakimin fəaliyyəti isə vaxtından əvvəl dayandırılmışdır. Hakim vəzifəsinə namizədlərin peşəkar bacarıqlara yiyələnməsi üçün xüsusi proqrama uyğun olaraq təlim kursları təşkil edilmiş və bu məqsədlə Avropa Şurası ilə birgə tanınmış beynəlxalq ekspertlər, ədliyyə və prokurorluq işçilərindən ibarət təlim komissiyası yaradılmışdır. 2009-cu il may ayında 60 vakant hakim vəzifəsi yerinə 438 namizədin iştirakı ilə test imtahanı keçirilmiş və test imtahanı 30-dək beynəlxalq və yerli QHT tərəfindən müşahidə edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli fərmanı ilə Ali Məhkəmə və digər yuxarı instansiya məhkəmələrinə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etmələri və məhkəmə təcrübəsində nəzərə almaları barədə verilən tövsiyələrə əsasən 2006-cı il martın 30-da Ali Məhkəmənin Plenumu "Avropa Konvensiyası müddəalarının və Avropa Məhkəməsi presedentlərinin tətbiqi barədə" qərar qəbul etmişdir. Bundan əlavə, 2006-cı il dekabrın 28-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Bu planda Konstitusiya Məhkəməsinə və Ali Məhkəməyə insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının məhkəmə təcrübəsində tətbiqi məqsədilə tədbirlərin görülməsi tövsiyə edilmişdir.

Hüquq-mühafizə orqanlarının öz vəzifə borclarının icrası zamanı insan hüquqlarını pozmuş əməkdaşlarının qanun qarşısında cavabdehliyi və onların hüquqi yolla sanksiyaların tətbiqi üçün respublikada ardıcıl tədbirlər həyata keçirilmişdir. Belə ki, hüquq-mühafizə orqanları əməkdaşlarına qarşı tək 2005-2007-ci illər ərzində daxil olmuş şikayətlər əsasında aparılmış təhqiqat nəticəsində 634 nəfərin qanun pozuntusuna yol verdiyi aşkar edilmişdir. Bunlardan 202 nəfəri işdən və ya vəzifədən azad edilmiş, 96-sının vəzifəsi və ya rütbəsi aşağı salınmış, digərləri müxtəlif növ intizam cəzasına məruz qalmışlar. 33 cinayət işi açılmışdır, 201 nəfər insan hüquqlarını poz-

duqlarına görə məsuliyyətə cəlb olunmuş, bunlardan da 41-i işdən azad edilmiş, 31-nin vəzifə və ya rütbəsi aşağı salınmışdır. Hüquqa zidd və cəmiyyətə qarşı istənilən hörmətsiz davranışın qarşısının alınması məqsədilə 26 may 2009-cu ildə "Polis haqqında" qanuna maarifləndirmə təbliğatının aparılması haqda bənd də daxil olmaqla bir sıra əlavələr edilmişdir.

Seçki qanunvericiliyinin təkmilləşdirilməsi, onun Avropa standartlarına uyğunlaşdırılması, Konstitusiyada və beynəlxalq sənədlərdə təsbit edilmiş seçmək və seçilmək hüququnun təmin edilməsinə Azərbaycanda qanunvericilik və praktik fəaliyyətlərdə önəmli yer ayrılmışdır. Belə ki, 2001-ci ildə, qüvvədə olan seçki qanunvericiliyinin əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi təmin edilmiş, Venesiya Komissiyası və ATƏT/DTİHB ilə sıx əməkdaşlıqda yeni Seçki Məcəlləsi hazırlanmış və beynəlxalq təsisatların rəyləri nəzərə alınmaqla 27 may 2003-cü ildə qəbul olunmuşdur. Seçki praktikasının təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti 2005-ci il mayın 11-də və oktyabrın 25-də sərəncamlar imzalamış, Venesiya Komissiyasının təklifləri nəzərə alınmaqla, 23 iyun 2008-ci il və 18 iyun 2010-cu il tarixlərdə Seçki Məcəlləsinə əlavələr və dəyişikliklər edilmişdir. Bu əlavələr və dəyişikliklər nəticəsində seçki prosesinin müddətinin 60 günə qədər azaldılması, seçki komissiyalarının işinə hər hansı müdaxilənin qadağan olunması, pozuntuların qarşısını almaq məqsədilə səsvermə günü seçicilərin barmaqlarının gözlə görünməyən mürəkkəblə işarələnməsi, vətəndaşlar tərəfindən seçkilərlə əlaqədar verilmiş şikayətlərə baxılması qaydaları və prosedurlarının sadələşdirilməsi kimi mütərəqqi addımlar atılmış, istənilən qeyri-hökumət təşkilatlarına seçkiləri müşahidə etmək və "exit-poll" keçirmək hüququ verilmişdir. Azərbaycan tarixində ilk dəfə 2005-ci il seçkilərində "exit-poll" keçirilmiş və əksər dairələrdə "exit-poll"un nəticələri ilə MSK-nın elan etdiyi nəticələr cüzi şəkildə fərqlənmişlər. "Exit-poll" praktikası sonrakı seçkilərdə də həyata keçirilmişdir. Seçkilər prosesini, bir qayda olaraq, ATƏT-in Demok-

ratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, Avropa Şurasının, Avropa Şurası Parlament Assambleyasının, Müstəqil Dövlətlər Birliyinin təşkil etdikləri beynəlxalq müşahidəçi missiyaları, habelə bir çox ölkələrin hökumət və qeyri-hökumət təşkilatlarından yüzlərlə nümayəndələr müşahidə edirlər.

Söz azadlığının qorunması, kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyət göstərməsi və inkişafının təmin edilməsi, həmçinin Avropa Şurası qarşısında öhdəlikləri yerinə yetirmək məqsədilə 7 dekabr 1999-cu il tarixli KİV haqqında qanun 28 dekabr 2001-ci ildə yenidən nəzərdən keçirilmişdir. Bu qanuna əsasən, KİV üzərində dövlət senzurasına yol verilmir, KİV istehsalı və yayımı təsisçinin və ya məhkəmənin qərarı ilə müvəqqəti dayandırıla, yaxud ona xitam verilə bilər və vəzifəli şəxslər tərəfindən hər hansı müdaxilə, o cümlədən peşə müstəqilliyini pozma, kütləvi informasiya vasitələrinin istehsalını və yayımını dayandırma, tirajı müsadirə etmə və ya digər hüquqların pozulması Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq mülki, inzibati, cinayət və digər məsuliyyətə səbəb olur. Avropa Şurasının tövsiyələri əsasında qanunun jurnalistlərin akkreditasiyası və kütləvi informasiya vasitələrinin bağlanması proseduruna dair müddəalarına düzəlişlər edilmişdir. 2008-ci il mayın 7-də KİV haqqında qanuna yeni dəyişikliklər və əlavələr edilmişdir. Dərc olunan müstəqil mətbuata müəyyən vacib imtiyaz və istisnalar verilmiş, mətbuat məhsulları ƏDV-dən və gəlir vergisindən azad olunmuş, qəzet kağızına ikiqat gömrük vergisi ləğv olunmuş, kommunal və rabitə qurğularının istifadəsində bir sıra üstünlüklərin təminini nəzərdə tutan dövlət proqramı tətbiq edilmişdir.

Azərbaycanın Avropa Şurası qarşısında öhdəliklərinə uyğun olaraq 28 sentyabr 2004-cü ildə "İctimai televiziya və radio yayımı haqqında" qanun qəbul edilmişdir. Ölkə prezidentinin fərmanına əsasən Azərbaycan televiziyasının 2-ci kanalı və Dövlət Radiosunun 1-ci kanalı əsasında İctimai televiziya və radio şirkəti yaradıl-

mış və 2005-ci il avqustun 29-da fəaliyyətə başlamışdır. Keçən illər ərzində İctimai televiziya və radio şirkəti müsir avadanlıq və texnika ilə təchiz edilərək inkişaf etmiş, hazırda öz verilişlərini ölkənin bütün ərazisinə translyasiya edir. Azərbaycan Respublikası Prezidentinin 2005-ci ilin martında imzaladığı digər fərmanla Dövlət Televiziya və Radio Şirkəti qapalı səhmdar cəmiyyətə çevrilərək, onun idarəçiliyi dövlət tabeliyindən çıxarılmışdır. Qapalı Səhmdar Cəmiyyətin səhmlərinin 51 faizi dövlətə məxsusdur.

Digər tərəfdən, 25 iyun 2002-ci ildə Televiziya və radio yayımı haqqında Qanun qəbul edilmiş, 2003-cü ilin əvvəlindən Radio Televiziya Yayımı üzrə Dövlət Şurası fəaliyyətə başlamışdır. Seçki yolu ilə 15 mart 2003-cü ildə Mətbuat Şurasının tərkibi formalaşdırılmışdır. 2005-ci ildə qəbul edilmiş "İnformasiya əldə etmək haqqında" qanun hər kəsin sərbəst, maneəsiz, hamı üçün bərabər şərtlərlə informasiya əldə etməsinə hüquqi təminat yaratmışdır. KİV sahəsində mövcud problemləri aradan qaldırmaq məqsədilə 31 avqust 2008-ci ildə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə dövlət dəstəyi Konsepsiyası" qəbul edilmiş və bu Konsepsiyaya əsasən 2009-cu ildə Kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Fondu yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2009-cu və 2010-cu illərdə imzalamış olduğu fərmanlarla Milli Mətbuat Günü münasibətilə bir çox xəbər agentlikləri və qəzetlər 10 min manat həcmində birdəfəlik maliyyə yardımı almışlar. Hazırda Azərbaycanda 3300 KİV dövlət qeydiyyatına alınmış, onlardan yalnız 600-ü fəaliyyət göstərir ki, bunlardan 400-ə yaxını qəzet və jurnallar, 44 müstəqil teleradio şirkəti (7 ümumrespublika, 14 regional televiziya kanalı, 12 kabel televiziyası və 11 radiostansiya), 50-yə yaxını isə elektron kütləvi informasiya vasitələridir.

## 2.3. "Siyasi məhbus" anlayışında ikili standartlara qarşı mübarizə

Avropa Şurasına üzv olmaq ərəfəsində bu Avropa təşkilatı tərəfindən Azərbaycan üzərinə qoyulan öhdəliklər arasında daha çox mübahisə doğuran "hüquq müdafiə təşkilatları tərəfindən siyasi məhbus kimi tanınan məhkumların işinə baxılması və onların azad edilməsi məsələsinə baxmaq" öhdəliyi olmuşdur. Əsas mübahisə predmeti əsasən "siyasi məhbus" anlayışının hüquqi təbiəti, ondan irəli gələn subyektiv və gərəzli nəticələrdən, ayrıseçkili yanaşmadan ibarət olmuşdur. Belə ki, Avropa Şurası tərəfindən təyin edilmiş Stefan Treçel, Evert Alkema və Aleksandr Arabaciyevdən ibarət müstəqil ekspertlər qrupu Ermənistan və Azərbaycanda siyasi məhbusların mövcudluğunu müəyyən etmək üçün meyarları özündə əks etdirən məruzə hazırlamış və həmin sənədi 16 iyun 2001-ci ildə AŞ baş katibinə göndərmişlər. Ekspertlər məruzədə etiraf etmişlər ki, "siyasi məhbus" ifadəsi həddən artıq qeyri-müəyyən olduğundan, həmin ifadədən müxtəlif, o cümlədən ziddiyyətli və qərəzli məqsədlər üçün istifadə edildiyindən, həmin ifadənin istifadə edilməsi heç bir hüquqi əhəmiyyət daşımır. Məruzədə həm də vurğulanır ki, heç bir beynəlxalq sənəd, heç bir dövlətlərarası və ya qeyri-hökumət təşkilatlarının qərarı "siyasi məhbus" anlayışından aydın tərif verilmiş şəkildə istifadə etmir, ümumi tərifin verilməsi ağlabatan dərəcədə təsəvvür edilə bilməz və hər şey tərifin xidmət etməli olduğu funksiyadan asılıdır. Buna baxmayaraq, AŞ PA 24 oktyabr 2001-ci ildə "Azərbaycanda siyasi məhbuslar" adlı 1272 saylı qətnamə qəbul etmiş və həmin qətnamədə Azərbaycanda siyasi məhbuslar olması barədə qərar öz əksini tapmışdır. Diqqəti çəkən məqamlardan biri ondan ibarətdir ki, müstəqil ekspertlər qrupunun hazırladığı məruzə Ermənistan və Azərbaycanda siyasi məhbusların mövcudluğunu müəyyən etmək üçün meyarları özündə əks etdirsə də, AŞ PA-nın qəbul etdiyi 1272 saylı qətnamə yalnız Azərbaycana aid olmuşdur və Ermənistanla bağlı nə əvvəlcə, nə də sonradan ana-

loji qətnamə qəbul edilməmişdir.

Avropa Şurası Parlament Assambleyasının 2003-cü il iyunun 26-da keçirilən növbəti sessiyasında Azərbaycanda siyasi məhbuslar məsələsi barədə Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin üzvü, belçikalı deputat Corc Klerfayt məruzə ilə çıxış etmiş və məruzədə Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirərək, Avropa Şurasına üzv qəbul edildiyi vaxt "siyasi məhbus" problemi ilə bağlı götürdüyü öhdəlikləri yerinə yetirmədiyini bildirmiş, müxtəlif cinayətlərə görə məhkum olunmuş şəxsləri "siyasi məhbus" kimi qələmə vermişdir. Klerfaytın hazırladığı məruzədə Azərbaycanın Avropa Şurasının tamhüquqlu üzvü olması ilə bağlı 16 yanvar 2001-ci ildə qəbul edilmiş amnistiya aktının tətbiqi nəticəsində cəzaçəkmə yerlərindən təqribən 2300 şəxs azadlığa buraxılması, 800 şəxsin cəzasının yarıya endirilməsi, 4400 şəxsin azadlıqdan məhrumetmədən azad edilməsi, istintaq orqanları və məhkəmələr tərəfindən 1300 şəxs barəsində cinayət təqibinə xitam verilməsi, o cümlədən Azərbaycan Prezidentinin 17 iyun 2003-cü il tarixli fərmanı ilə 106 məhbusun azad olunması və azad olunanlar sırasında hüquq müdafiə təşkilatları tərəfindən "siyasi məhbus" kimi tanınan məhkumların böyk əksəriyyətinin olması faktları öz əksini tapmamışdır. Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Əliyev gündəliyə salınmış "siyasi məhbus" haqqında məruzənin ziddiyyətli olduğunu və seçkiqabağı vəziyyətə təsir etmək məqsədi güddüyünü bildirərək, qeyd etmişdir ki, Azərbaycan Avropa Şurasına daxil olduğu vaxtdan bəri bəzi qeyri-hökumət təşkilatlarının hazırladığı 716 nəfərdən ibarət "siyasi məhbus" siyahısı 527 nəfər azalmışdır, bu isə o deməkdir ki, Azərbaycanın Avropa Şurasındakı üzvlüyü dövründə bəzi qeyri-hökumət təşkilatlarının "siyasi məhbus" hesab etdiyi 527 dustaq azadlığa buraxılmışdır. Müzakirələr zamanı çıxış edən deputatların əksəriyyəti Klerfaytın məruzəsinin qərəzli və səthi xarakter daşımasını, Avropa Şurasının meyarlarına uyğun gəlmədiyini, ekspertlər qrupunun rəyi ilə məruzəçinin mövqeyinin ziddiyyət

təşkil etdiyini vurğulamışlar. Nəhayət, AŞ PA Azərbaycanda “siyasi məhbus” məsələsi ilə bağlı məruzəni ziddiyyətli sayaraq yenidən işləmək üçün komitəyə qaytarılması barədə qərar qəbul etmişdir.

AŞ PA-nın Azərbaycanda siyasi məhbus məsələləri üzrə məruzəçisi Malkolm Bryusun məruzəsinin 2005-ci ilin iyun ayında ətraflı müzakirəsindən sonra Azərbaycanda “siyasi məhbus” məsələsi bir qədər səngimiş, Malkolm Bryus Azərbaycanda siyasi məhbus problemi mövcud olmaması qənaətinə gələrək məruzəçi postundan istefa vermiş, süni surətdə yaradılmış bu mövzu ilə əlaqədar Azərbaycan üzrə yeni məruzəçi təyin olunmasına ehtiyac qalmamişdı. Siyasi məhbus problemi üzrə məruzəçi postunun ləğv edilməsinə baxmayaraq “siyasi məhbus problemi” adlandırılan məsələnin hüquqi vasitələrlə həll edilməsinə və bu məsələnin tam bağlanmasına nail olmaq məqsədilə Azərbaycanın rəsmi strukturlarının təşəbbüsü ilə 11 iyun 2005-ci ildə hakimiyyət nümayəndələri və hüquq müdafiəçilərindən ibarət tərkibdə İşçi Qrupu yaradılmış və birgə memorandum imzalanmışdır. Həmin İşçi Qrupu fəaliyyətini sonradan İnsan Hüquqları üzrə İşçi Qrupu kimi davam etdirmişdir. Buna baxmayaraq, Azərbaycan Respublikasi ilə Avropa Şurası arasinda konstruktiv davamlı əməkdaşlıqda maraqlı olmayan qüvvələrin cəhdləri nəticəsində qondarma “Azərbaycanda siyasi məhbus problemi” vaxtaşırı AŞ Hüquq məsələləri və insan hüquqları komitəsində gündəmə gətirilmişdir.

AR Prezidentinin 2005-ci il martın 20-də imzaladığı əfv fərmanı ilə Avropa Şurasının müxtəlif siyahılarında göstərilən 53 məhbus da daxil olmaqla, cəmi 114 nəfər (o cümlədən adları tez-tez hallandırılan R.Qazıyev, N.Əfəndiyev, F.Muxtarov, T.Qasımov və digərləri) azadlığa buraxılmışdır. Avropa Şurasının müstəqil ekspertlər qrupu tərəfindən “siyasi məhbus” hesab edilmiş şəxslərdən üçünün işinə yenidən baxılmış (E.Əmiraslanov, A.Kazımov və S.Poladov), bütün qalan “siyasi məhbus” hesab edilmiş şəxslər isə azadlığa buraxılmışlar. Bundan əlavə, hüquq müdafiə təşkilatlarının siyahılarında

göstərilən 4 nəfər məhkəmələr tərəfindən, 30-dan çoxu isə Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2005-ci il tarixli fərmanı ilə əfv olunaraq azadlığa buraxılmışlar. Hüquq müdafiəçilərinin siyahılarında adları çəkilən daha 10 nəfər "siyasi məhbus" AR Prezidentinin 19 mart 2007-ci il tarixli əfv fərmanı ilə azadlığa çıxmış, 1 nəfərin cəzasının müddəti azaldılmış və 1 nəfərin şərti cəzası ləğv edilmişdir.

Nəhayət, Azərbaycanda dünyanın 30 ölkəsindən 70-ə qədər ekspertin, o cümlədən AŞ PA, ATƏT PA, Avropa Parlamentinin və BMT-nin müxtəlif strukturlarının nümayəndələrinin iştirakı ilə 2005-ci ildə "İnsan Hüquqları XXI-ci əsr – Azərbaycan" Fondu, "Azadlıqdan Məhrumetmə Yerlərinin Müşahidəsi" İctimai Birliyi və "Məhbusların Reinteqrasiyası Assosiasiyası" (Bolqarıstan) tərəfindən "siyasi məhbus" problemi və 2008-ci ildə isə "Azərbaycanda siyasi hüquqların müdafiəsi — yeni meyarlar" mövzusunda beynəlxalq konfranslar keçirilmişdir. Bu beynəlxalq konfransların qətnamə və bəyanatlarda "siyasi məhbus" anlayışının beynəlxalq-hüquqi təbiətinin təyin olunmaması, heç bir beynəlxalq sənəddə, o cümlədən Avropa Şurasının rəsmi sənədlərində öz əksini tapmaması, habelə qərarları presedent hüququ qüvvəsinə malik olan İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin praktikasında bu anlayışdan istifadə edilməməsi vurğulanmış, "siyasi məhbus" meyarlarını özündə əks etdirən "Siyasi məhbus problemi haqqında Avropa konvensiyası"nın işlənib hazırlanaraq qəbul edilməsi zərurəti göstərilmişdir. Həmin qətnamələr və bəyanatlar AŞPA-ya təqdim edilməsinə baxmayaraq, uzun müddət qeyd edilən konfranslarda iştirak etmiş çoxsaylı beynəlxalq ekspertlərin hazırladığı bu sənədlərə Avropa Şurası tərəfindən heç bir reaksiya verilməmişdir.

Qeyd edilməlidir ki, qondarma "siyasi məhbus" problemi mütəmadi olaraq ölkədə xüsusilə Prezident və parlament seçkiləri, AŞ PA-nın növbəti sessiyaları ərəfəsində süni şəkildə müzakirələr mövzusuna çevrilmiş və həm ölkə daxilində, həm də onun hüdud-

larından kənarda bəzi dairələr tərəfindən genişmiqyaslı və qərəşli kampaniya formasında Azərbaycana qarşı siyasi təsit vasitəsi kimi istifadə edilmişdir. Bu qeyri-obyektiv xarakterli kompaniyaların qarşısını almaq və problemin əsl mahiyyətini ictimaiyyətə çatdırmaq məqsədilə Azərbaycanda fəaliyyət göstərən bir çox QHT-lət, o cümlədən öz sıralarında 70-dən çox QHT-ni birləşdirən “Siyasi məhbus problemləri üzrə Şura” təcrübəli ekspertlər qrupu formalaşdırmışdır. Eksperlər qrupu Avropa Şurası tərəfindən “siyasi məhbus” kimi tanınmış 100-dən artıq məhbusun cinayət işlərini araşdırmış və onların “siyasi məhbus” kimi tanınmasının heç bir hüquqi əsasının olmaması barədə birmənalı nəticəyə gəlmiş, hətta “siyasi məhbus” kimi tanınanlar arasında uşaq oğurluğu, terrorçuluq, dövlət çevrilişi cəhdləri və digər zorakı cinayətkar əməllər törətmiş insanların olduğunu aşkar etmişdir. Həmin QHT-lərin rəhbərləri aşkarladıqları faklarla bağlı AŞ rəhbərliyini məlumatlandırmış, bir sıra Avropa Şurası deputatları ilə ikitərəfli və çoxtərəfli görüşlər zamanı bu faktları onların diqqətlərinə çatdırmışlar. Bununla bərabər, həmin təşkilatlar ardıcıl olaraq bəyanatlarla AŞ rəhbərliyi və deputatlarına müraciət etmişlər. Bu bəyanatlarda vurğulanmışdır ki, hər hansı bir partiya və siyasi hərəkat üzvü olmasından və ya yüksəksəviyyəli dövlət məmuru olmasından asılı olmayaraq hər kəs törətdiyi cinayətlərə görə qanun qarşısında cavab verməlidir və bu məsələyə siyasi don geyindirmək demokratik dövlətin ikişafı və vətəndaş cəmiyyətin formalaşmasının başlıca amili olan hüququn aliliyi prinsipinə ziddir. Törədilmiş bir neçə cinayət əməllərinin təhqiqatı və ya məhkəmə prosesləri zamanı müstəntiq və ya hakimlər tərəfindən buraxılmış səhvlər həmin cinayətkarların “siyasi məhbus” kimi tanınmasına əsas vermir, bu məsələlər siyasi deyil, hüquqi müstəvidə həllini tapmalıdır və əgər kimsə milli məhkəmə-hüquq sistemində qəbul edilmiş qərarlarla razı deyilsə, Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etmək hüququna malikdir. Bu bəyanatlarda vurğulanmışdır ki, heç bir hüquqi meyar və beynəlxalq-hüquqi sənəd olmadan ayrıseçkiliyə yol

verərək 47 üzv dövlətdən yalnız Azərbaycana qarşı siyasi məhbus probleminin olması barədə iddia etmək və Azərbaycanda siyasi məhbus problemi üzrə xüsusi məruzəçinin təyin edilməsi beynəlxalq hüquq normaları ilə ziddiyyət təşkil etməkdən əlavə, nə ümumavropa dəyərlərinə, nə də Avropa Şurasının prinsiplərinə uyğun deyil. Aydındır ki, ikili standartlar açıq-aşkar üzə çıxır və bu, beynəlxalq qurumun neytral və tarazlaşdırılmış nüfüzuna olan böyük zərbədir.

Buna baxmayaraq, Azərbaycan Respublikasi ilə Avropa Şurası arasında konstruktiv davamli əməkdaşlıqda maraqlı olmayan qüvvələrin cəhdləri nəticəsində qondarma “Azərbaycanda siyasi məhbus problemi” vaxtaşırı AŞ PA Hüquqi məsələlər və insan hüquqları komitəsində gündəmə gətirilmişdir. Nəhayət, 2008-ci ildə həmin komitə “siyasi məhbus” anlayışının beynəlxalq hüquqda təyin olunmamasını, Avropa Şurasının rəsmi sənədlərində öz əksini tapmamasını, o cümlədən qərarları presedent hüququ qüvvəsinə malik olan İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin praktikasında bu anlayışdan istifadə edilməməsini nəzərə alaraq, “Azərbaycanda siyasi məhbus problemi” kimi iddialarin hüquqi əsasları olmadığı və Avropa Şurasında “siyasi məhbus” məsələsi ilə bağlı bütün üzv dövlətlərə şamil edilə biləcək müvafiq sənədin və meyarların işlənib hazırlanaraq qəbul edilməsi qənaətinə gəlmişlər. Bu səbəbdən Avropa Şurası Parlament Assambleyasının Bürosu 2009-cu ildə üzv dövlətlərdə “siyasi məhbus” anlayışı meyarlarını özündə əks etdirən sənədin hazırlanması və qəbulu yekunlaşdırılana qədər siyasi məhbus məsələsi üzrə təyin edilmiş məruzəçinin fəaliyyətinin dayandırılması qərarına gəlmişlər.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, AŞ-nin Hüquqi məsələlər və insan hüquqları komitəsində qondarma “siyasi məhbus” problemi 2009-cu ilin əvvəllərində yenidən gündəmə gətirilmiş və həmin komitənin 24 mart 2009-cu ildə keçirilmiş iclasında Avropa Şurasının üzvü olan 47 ölkədən yenidən yalnız Azərbaycanda siyasi məhbus problemi üzrə xüsusi məruzəçinin təyin edilməsi barədə qərar qəbul

edilmişdir ki, bu da təəssüf ki, Avropa Şurasının Nizamnaməsində bu quruma üzv dövlətlərin bərabərliyi və hüququn aliliyi kimi əsas prinsiplərlə ciddi ziddiyyət təşkil edir, habelə Avropa Şurası strukturlarında Azərbaycana münasibətdə qərəzli mövqeyin və ikili standartların mövcudluğunu bir daha nümayiş etdirir.

Hesab edirik ki, kimsə tərəfindən "siyasi məhbuslar" meyarının müəyyənləşdirilməsi və onun 47 ölkədən yalnız birinə (yəni Azərbaycana) tətbiq edilməsi qəbuledilməzdir. Güman edirik ki, "siyasi məhbuslar" meyarının müəyyənləşdirilməsi probleminin həlli üçün üzv dövlətlərin hər hansı birində mövcudluğu mümkün olan bütün "siyasi məhbuslar"ın problemi üzrə alt-komitənin yaradılması labüddür. Bu alt-komitənin məqsədi siyasi məhbus anlayışı üçün vahid meyarın təyini və istənilən üzv dövlətdə tətbiq olunacaq müvafiq Avropa Şurası Konvensiyasının hazırlanması olmalıdır. Bu Konvensiyanın qəbul edilməsindən sonra ayrı-seçkilik olmadan bütün üzv dövlətlərdə "siyasi məhbuslar" probleminə dair monitorinq keçirilməlidir.

### 2.4. Dağlıq Qarabağ münaqişəsi Avropa Şurasının gündəliyində

Avropa Şurası Parlament Assambleyasında tamhüquqlu üzv kimi iştirak edən Azərbaycan nümayəndə heyəti Ermənistanın işğalçı siyasətini ifşa etmək, Azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi terror və soyqırım cinayətlərini, Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi faktlarını Avropa ictimaiyyətinə çatdırmaq, bu cinayətkar dövlətin Avropa Şurası tərəfindən təcavüzkar kimi tanıtdırmağı, təcavüzə tezliklə son qoyulması məqsədilə ona qarşı beynəlxalq sanksiyaların tətbiq edilməsinə nail olmağı özünün başlıca vəzifəsi kimi müəyyənləşdirmişdir. Bu məqsədlə, Azərbaycan nümayəndə heyəti AŞ PA-da qısa müddət ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müxtəlif aspektləri ilə bağlı onlarla sənəd hazırlanmış və onlar şu-

ranın rəsmi sənədləri kimi yayılmışdır. Bundan əlavə AŞ PA-da "Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı haqqında", "Dağlıq Qarabağda, zəbt olunmuş ərazilərdə mədəniyyət abidələrinin məhv edilməsi haqqında", "Ermənistanda və Dağlıq Qarabağda olan hərbi əsirlər və girovlar haqqında", "Qaçqın və məcburi köçkün uşaqların təhsili haqqında", "Azərbaycanda məcburi köçkünlərin vəziyyəti haqqında" və s. sənədlər qəbul edilmişdir. Bu proses sonrakı mərhələlərdə də davam etdirilmiş və Azərbaycan nümayəndə heyəti Avropa Şurasının Nazirlər Komitəsində üzv ölkələrin ərazi bütövlüyü məsələsinin müzakirəsinə nail olmuşdur. Avropa Şurasının üzvü olan dövlətlərin hamısı müzakirələrin nəticəsində hazırlanmış sənədə imza atsa da, Ermənistan həmin sənədi imzalamaqdan imtina etmiş və bununla da özünü beynəlxalq ictimaiyyətin gözü qarşısında ifşa etmiş oldu.

Avropa Şurası Parlament Assambleyasının 2001-ci il payız sessiyasında sentyabrın 24-də qəbul edilmiş qərarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla həll olunmasının zəruriliyi vurğulanmışdır. Bundan əlavə, Azərbaycan nümayəndə heyəti tərəfindən Nazirlər Komitəsinə ünvanlanmış "Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması" sorğusu 43 ölkənin nümayəndələrinin iştirakı ilə müzakirəyə çıxarılmış və Ermənistan ona dəstək verən bəzi qüvvələrin qərarın qəbul olunmasına maneçilik törətməsinə baxmayaraq, Nazirlər Komitəsi tərəfindən qəbul edilmiş 7 bənddən ibarət qərarda göstərilmişdir ki, Nazirlər bütün Avropada beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərə, suverenliyə və dövlətlərin ərazi bütövlüyünə, eləcə də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, ATƏM-in Helsinki Yekun Aktında və digər müvafiq mətnlərdə əks olunmuş beynəlxalq hüquq prinsiplərinə hörmət edilməsinə dəstəklərini bir daha təsdiq edirlər. Qərarda xalqların öz müqəddəratını təyin etmək hüququndan bəhs olunaraq vurğulanırdı ki, nəticə etibarı ilə bu hüquq yalnız sülh da-

nışıqları əsasında həyata keçirilə bilər, torpaq əldə etmək məqsədilə gücdən istifadə qəbuledilməzdir və ondan irəli gələn heç bir nəticə qanuni tanına bilməz. Bundan əlavə, AŞ PA-da azərbaycanlı məcburi köçkün və qaçqınların acınacaqlı vəziyyəti, işğal olunmuş ərazilərdə mədəniyyət abidələrinin məhv edilməsi, ali və orta təhsil müəssisələrinin tamamilə dağıdılması, minlərlə azərbaycanlı uşağın təhsil hüququndan məhrum edilməsi və s. haqqında da müxtəlif sənədlər hazırlanmış və yayılmışdır.

Azərbaycanın nümayəndə heyəti davamlı olaraq Ermənistan dövlətinin terrorçuluq siyasətini Avropa Şurası Parlament Assambleyasının sessiyalarında Avropa parlamentarilərinin nəzərinə çatdırmışdır. Bundan əlavə, nümayəndə heyəti vurğulamışdır ki, bu siyasət yalnız Azərbaycana və ya bütün regiona deyil, qlobal sülh üçün təhlükədir. Müzakirələr zamanı qətiyyətlə qeyd edilmişdir ki, Azərbaycan ərazilərinin işğalı ilə yanaşı, Ermənistan Azərbaycan xalqına qarşı 32 terror aktı törətmişdir. Bu terror aktları nəticəsində iki min nəfərdən çox adam öldürülmüşdür. Eləcə də əlavə edilmişdir ki, Ermənistan Respublikası erməni terror təşkilatları, eləcə də "ASALA" ilə sıx əməkdaşlıq edir. Bundan əlavə, qeyd olunmuşdur ki, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində terrorçulara təlimlər keçirilməsi üçün hərbi düşərgələrin salınması məqsədilə münasib şəraitin yaradılması, insan alveri, silah qaçaqmalçılığı və çirkli pulların yuyulması daxil olmaqla, narkotik maddələrin yetişdirilməsi və daşınması sübut edilmiş faktlardır.

Azərbaycan tərəfinin davamlı səyləri nəticəsində Avropa Şurasının Parlament Assambleyası 25 yanvar 2005-ci il tarixdə Birləşmiş Krallıqdan olan deputat David Atkinsonun hazırladığı məruzə əsasında "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə" adlı 1416 nömrəli Qətnamə qəbul etmişdir. Qətnamədə AŞ PA Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasından təssüfləndiyini bildirərək, yüz minlərlə insanın hələ də köçkün olmasını və acınacaqlı şəraitdə yaşaması-

nı, Azərbaycan ərazisinin əhəmiyyətli hissələrinin hələ də erməni qüvvələri tərəfindən işğal edilməsini və separatçı qüvvələrin hələ də Dağlıq Qarabağ bölgəsinə nəzarət etməsini bildirmişdir. Assambleya hərbi əməliyyatların və bundan əvvəl başlamış kütləvi etnik düşmənçiliyin qorxunc etnik təmizləmə anlayışını xatırladan genişmiqyaslı etnik qovulmaya və mono-etnik ərazilərin yaranmasına gətirib çıxarması ilə bağlı öz narahatlığını ifadə edərək bir daha təsdiq etmişdir ki, bir dövlətin ərazisindən regional ərazinin ayrılması və müstəqilliyi etnik təmizləmələrə və bu cür ərazinin digər dövlətə de-fakto birləşdirilməsinə gətirib çıxaran silahlı münaqişə yolu ilə deyil, yalnız bu ərazinin əhalisinin demokratik dəstəyinə əsaslanan qanuni və dinc proses vasitəsilə əldə oluna bilər. Assambleya üzv dövlət tərəfindən xarici ərazinin işğalının həmin dövlətin Avropa Şurasının üzvü kimi öz üzərinə götürdüyü öhdəliklərin ciddi şəkildə pozulması demək olduğunu xatırlatmış və münaqişə ərazisindən köçkün düşmüş şəxslərin öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtması hüququnu bir daha təsdiq etmişdir. Assambleya həmçinin Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 822(1993), 853(1993), 874(1993) və 884(1993) saylı Qətnamələrini xatırlatmış və tərəflərin silahlı əməliyyatlardan çəkinməklə və istənilən işğal olunmuş ərazilərdən silahlı qüvvələri çıxarmaqla onlara riayət etməsini tələb edərək, AŞ PA Bürosundan ATƏT-in Minsk konfransı ölkələrinin milli nümayəndə heyətlərinin başçılarının da daxil olduğu alt komitə yaratmağı xahiş etmişdir.

Ümumiyyətlə, Avropa Şurasının rəsmi sənədlərində Azərbaycan ərazilərinin Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunması faktı dəfələrlə qeyd edilmişdir. Bu prosesin davamı kimi 2006-cı il yanvar ayının 9-da AŞ PA-nın Dağlıq Qarabağ problemi üzrə alt komitəsinin Strasburqda keçirilən növbəti iclasında mərhum lord Rassel Constonun hazırladığı hesabatda Azərbaycan ərazilərinin işğalı, Dağlıq Qarabağdakı rejimin separatçı olması, bir milyon azərbaycanlının yurdundan didərgin düşməsi və s. faktların öz əksini

tapması yuxarıda qeyd edilənlərə sübutdur. Bununla da bu mötəbər qurum növbəti dəfə bəyan etdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Avropa Şurasının və rəsmi Bakının mövqeləri üst-üstə düşür.

Bununla belə, Avropa Şurası Parlament Assambleyasının 1416 saylı qətnaməsinə əsasən yaradılmış Dağlıq Qarabağ münaqişəsi üzrə alt komitə Ermənistan nümayəndə heyətinin qeyri-konstruktiv mövqeyinə görə əslində fəaliyyətini dayandırdı. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsində irəliləyişin olmaması, onun təkcə regiona deyil, qlobal sülhə təhlükə yaratması və Avropa Şurasında insan haqlarının kütləvi pozulmasını aradan qaldırmaq üçün alt komitənin işinin bərpasına cəhd edilməməsi təəssüf ki, Avropa Şurasında ikili standartlar və laqeydliyə işarədir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, Avropa Şurası digər beynəlxalq təşkilatlar kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müxtəlif qərarlar və qətnamələr qəbul etməklə öz missiyasını, demək olar ki, bitmiş hesab etmiş, təcavüzkar Ermənistan Respublikasına qarşı öz arsenalında olan sanksiyaları tətbiq etməkdən yan keçmişdir. Bu isə Azərbaycan cəmiyyətində Avropa Şurasının nüfuzuna mənfi təsir göstərmiş və ona olan inamın azalmasına səbəb olmuşdur.

# Nəticə

Azərbaycan Respublikasının XXI əsrin əvvəllərində Avropa Şurasına bərabərhüquqlu üzv qəbul edilməsi ölkə tarixində baş verən ən vacib hadisələrdən və Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri olmuşdur. Bu tarixi hadisə Azərbaycanda qanuni normalara əsaslanan demokratik və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin inkişafı, azad bazar iqtisadiyyatı prinsiplərinin yerinə yetirilməsi istiqamətində köklü islahatların nəticəsi olaraq, onları daha da sürətləndirmiş, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinə xidmət etmişdir.

Azərbaycan Respublikasının Avropa Şurasına bərabərhüquqlu üzv olmasından keçən 10 il ərzində ölkəmiz bu nüfuzlu təşkilat çərçivəsində qəbul edilmiş onlarla beynəlxalq müqaviləyə, o cümlədən İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasına  qoşularaq ratifikasiya etmiş, həmin müqavilələrin müddəalarının milli hüquq sistemində implementasiyasını təmin etmək üçün zəruri tədbirlər həyata keçirmiş və həyata keçirməkdə davam edir. Bu illər ərzində insan hüquqları və əsas azadlıqlar ilə bağlı qanun layihələri Avropa Şurasının tövsiyyələri nəzərə alınmaqla hazırlanmış, Avropa Şurasının müvafiq qurumlarında ekspertizadan keçdikdən sonra qəbul edilmişdir. Bu konstruktiv və qarşılıqlı fayda kəsb edən əməkdaşlıq bu gün də uğurla davam etdirilir. Odur ki, Azərbaycan Respublikasında demokratik təsisatların daha da inkişaf etdirilməsində, demokratik proseslərin, insan hüquqlarının təmin edilməsi mexanizmlərinin daha da genişləndirilməsində və insan hüquqlarının müqafiəsinin beynəlxalq standartlara uyğunlaşdırılmasında Avropa Şurasının rolu danılmazdır. Digər tərəfdən, Azərbaycan Respublikası üzv dövlət kimi keçən 10 il ərzində Avropa Şurasının müxtəlif qurumlarının fəaliyyətində yaxından iştirak etmiş, bir sıra sənədlərin, o cümlədən konvensiyaların hazırlanaraq

qəbul edilməsinə öz töhvəsini vermiş və bununla da Avropa Şurasının daha inkişaf etməsi prosesinin iştirakçısı olmuşdur. Odur ki, Azərbaycan və Avropa Şurası arasında əməkdaşlıq hər iki tərəf üçün faydalı olmuşdur.

Eyni zamanda qeyd etmək lazımdır ki, Avropa Şurası digər beynəlxalq təşkilatlara xas olan və müasir dövrdə beynəlxalq münasibətlər sistemində ciddi problemlərin yaranmasına gətirib çıxaran təəssüf doğuran ikili standartlardan sığortalanmamışdır və Azərbaycan bu nüfuzlu təşkilatla əməkdaşlığı dövründə bir sıra məsələlərin müzakirəsi zamanı ikili standartların, qərəzli yanaşmaların qurbanı olmuşdur. Bu məsələlərdən Azərbaycana qarşı silahlı təcavüz edərək, Dağlıq Qarabağ bölgəsi də daxil olmaqla 20% Azərbaycan ərazilərini işğal etmiş təcavüzkar Ermənistan dövlətinə qarşı Avropa Şurasının mövcud sanksiyalarının tətbiq edilməməsini, digər tərəfdən, ayrıseçkiliyə yol verərək 47 üzv dövlətdən yalnız Azərbaycana qarşı beynəlxalq-hüquqi təbiəti və meyarları məlum olmayan qondarma "siyasi məhbus" anlayışının tətbiq edilməsini göstərmək olar.

Mərkəzi Asiya və Qafqazdan qazı Aİ ölkələrinə nəql edəcək mühüm siyasi və iqtisadi əhəmiyyətə malik NABUKKO qaz kəmərinin icrasında siyasi iradənin olmaması da yuxarıda qeyd edildiyi kimi, təəssüf doğuran yanaşma kimi dəyərləndirilməlidir.

Buna baxmayaraq, Azərbaycan dövləti Avropa Şurasının üzvü kimi tək bu təşkilat çərçivəsində deyil, bütövlükdə beynəlxalq aləmdə belə neqativ hallarla mübarizəni davam etdirmək, Avropa Şurası ilə əməkdaşlığı dərinləşdirərək daha da məzmunlu, daha da faydalı etmək əzmindədir.



Elxan Sirac oğlu Süleymanov 1940-ci ildə anadan olub. 1958-ci ildə əmək fəaliyyətinə müəllimliklə başlayıb, 1961-1966-cı illərdə Azərbaycan Dövlət Teatr İnstitutunda ali təhsil alıb, 1966-1989-cu illərdə Azərbaycanın müxtəlif mədəniyyət müəssisələrində rəhbər vəzifələrdə çalışıb.

Elxan Süleymanov 1990-1998-ci illərdə Rusiya-Amerika Universitetinin Azərbaycan bölməsinin baş direktoru olub. İctimai fəaliyyətlə yanaşı, 1989-cu ildən 2010-cu ilin noyabrınadək çoxşahəli biznes fəaliyyəti ilə məşğul olub. O, 2005-ci ildə Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasını (AVCİYA) təsis edib və bu günədək həmin təşkilatın prezidentidir. E. Süleymanovun rəhbərliyi ilə "Azərbaycanda siyasi məhbus problemi", "Azərbaycanda siyasi hüquqların müdafiəsi – yeni meyarlar", "Kriteriyasız kriteriyalar", "Azərbaycanda mətbuat və söz azadlığı yerli və beynəlxalq hüquq kontekstində", "Demokratik seçkilər və vətəndaş fəallığı", "Dağlıq Qarabağda erməni terrorunun izləri. Qaradağlı faciəsi. 17 fevral 1992–ci il.", "Xocalı soyqırımı"(2 cild), "Xocalı soyqırımı: milyon imza-bir tələb" (16 cild), "Şuşa - qədim Azərbaycan diyarı", "Bir faciə haqqında iki foto-söhbət", "Tarixi faktlar erməni miflərinə qarşı" kitabları nəşr edilib və dünyanın nüfüzlu kitabxanalarına göndərilib. AVCİYA-nın 2005-2010-cu illərdə Avropa və Amerikadan görkəmli siyasi xadim və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə söz azadlığı, insan haqları, iqtisadi inkişaf, Dağlıq Qarabağ problemi və seçkilərlə bağlı mövzularda keçirilmiş 10-dan artıq beynəlxalq konfransın materialları nəşr olunaraq Azərbaycanda və ölkənin hüdudlarından kənarda ən mötəbər beynəlxalq təşkilatlara çatdırılıb.

Elxan Süleymanov 7 noyabr 2010-cu ildə Azərbaycan Respublikasının Milli Məclisinə üzv seçilib, Azərbaycanın Avropa Şurasının Parlament Assambleyasında nümayəndə heyətinin üzvüdür.

*www.avciya.az*
*www.elkhan-suleymanov.az*